

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Demokratiyanın meyarı və ölçüsü: söz və mətbuat azadlığı



4

# SƏS

№ 076 (6759)

4 may 2023-cü il.
Qiymәti 60 qәpik

# Möhtəşəm tədbirlərin ünvanı: - ŞUŞA!

2




# Dünyanın soyuqqanlıqla müşahidə etdiyi MİNA TERRORU




12

## "Tarix yazan Böyük Şəxsiyyət"



8

## Birinci repetitorluğu, yoxsa tamahı azaldaq?



16

## Yeni dəyişikliklər NƏLƏRƏ SƏBƏB OLACAQ?



13

## Süddən imtina NƏLƏRƏ SƏBƏB OLA BİLƏR? - DİQQƏT!



16

## İranın Yaxın Şərqdə "AT OYNATMAQ PLANI"



14

*Mayın 3-də Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.*

# Möhtəşəm tədbirlərin ünvanı: - ŞUŞA!

### BİZ BU MƏKANDA ƏSASƏN AZƏRBAYCANIN GƏLƏCƏK İNKİŞAFI İLƏ BAĞLI OLAN FİKİR VƏ İDEYALARIN MÜBADİLƏSİNİ APARMAQLA PRAKTİKİ ADDIMLARI MÜZAKİRƏ ETMƏK İSTƏYİRİK VƏ REGİONAL İNKİŞAF PROSESLƏRİNƏ DƏ NƏZƏR SALMALIYIQ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib ki, biz bu məkanda əsasən Azərbaycanın gələcək inkişafı ilə bağlı olan fikir və ideyaların mübadiləsini aparmaqla praktiki addımları müzakirə etmək istəyirik və regional inkişaf proseslərinə də nəzər salmalıyıq. Çünki biz regionda baş verən proseslərə göz yuma bilmərik. Qarabağın azad edilməsindən sonra ölkə daxilində artıq heç bir risklə üzləşmədiyimizə baxmayaraq, biz adada yaşamırıq. Görüşün Şuşada keçirilməsinin xüsusi məna daşıdığını vurğulayan dövlətimizin başçısı bildirib: “Keçən ili mən “Şuşa İli” elan etmişdim, çünki bu şəhərin Qarabağ xanı Pənahəli xan tərəfindən yaradılmasının 270-ci il dönümü idi”.




*“Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfrans işinə başlayıb*




*“Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq”*




Bəli, Prezident İlham Əliyevin 2022-ci ili “Şuşa İli” elan olunması haqqında Sərəncamı Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın yaradılmasının 270 il dönümü oldu. Eyni zamanda 2022 –ci ilin ”Şuşa İli” elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisi olmaqla yanaşı dövlət başçısının xalqa bəxş etdiyi Qarabağ Azərbaycan olmaqla Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın beynəlxalq aləmdə tanıdılması baxımından çox önəmli tarixi hadisə idi. Belə ki, ”Şuşa İli”ndə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin görülməsi, Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası bir daha göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Ən əsası isə, düşmənin 28 illik işğal dövründə burada qura bilmədiklərini Azərbaycan dövləti ”Şuşa ili”ndə həyata keçirdi və bu proses bu gün də davam edir.

### HEYDƏR ƏLİYEV HƏMİŞƏ AZƏRBAYCAN XALQININ MARAQLARINI QORUYAN BİR ŞƏXS OLUB

Bəli, tarix ən ədalətli hakimdir. Və bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib ki, Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib. Dövlətimizin başçısı deyib ki, Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində Ulu Öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. 70-ci illərdə və 80-ci illərin əvvəlində Heydər Əliyev tərəfindən atılmış bir çox addımlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdi.

Bəli, həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə – Azərrbaycan Kommunist Partiyasının Birinci Katibi seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün sözün əsl mənasında dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu və xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi. Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. Və bu gün Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Hakimiyyətdə olduğu 35 il müddətində ulu öndər xalqın tarixi mənafeyi uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərmişdir. Və bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır! Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şölələridir!

Ardı Səh. 3

# Möhtəşəm tədbirlərin ünvanı: - ŞUŞA!



*"Əgər Ermənistan konstruktiv olmasa, yeni geosiyasi konfiqurasiyada özünə yer tapmalı olacaq"*

Əvvəli-Səh-2

### İŞĞAL DÖVRÜNDƏ ŞUŞANIN DAĞIDILMASI BİR DAHA GÖSTƏRİR Kİ, O, HEÇ VAXT ERMƏNİLƏR ÜÇÜN DOĞMA ŞƏHƏR OLMAMIŞDIR

"Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur. Yalnız işğal dövründə iyirmi səkkiz ildən artıq müddət ərzində Şuşa əcnəbi hökmranlıq altında idi". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib. Konfrans iştirakçılarının tədbirdən sonra Şuşa şəhəri ilə tanış olacaqlarını vurğulayan Azərbaycan Prezidenti qeyd edib: "Siz bizim görüşdən sonra şəhərə ekskursiya edəcəksiniz və özünüz görəcəksiniz ki, işğal dövründə Şuşa demək olar, tamamilə dağıdılmışdır. Bu, bir daha onu göstərir ki, Şuşa heç vaxt ermənilər üçün doğma şəhər olmamışdır".

### ƏGƏR ERMƏNİSTAN SÜLH İSTƏMİRSƏ, SÜLH OLMAYACAQ

Prezident İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq: "Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər". Dövlətimizin başçısı onu da vurğulayıb ki, 28 il ərzində Minsk qrupu heç




bir nəticə vermədi: "Yeri gəlmişkən, nəticə nöqteyi-nəzərdən 28 il ərzində Minsk qrupu heç bir nəticə verməmişdir. Bunun əsas səbəbi isə o idi ki, Ermənistan torpaqları geri qaytarmaq istəmirdi". İşğal dövründə Minsk qrupunun Azərbaycanda çox populyar olmadığını deyən dövlətimizin başçısı qeyd edib: «İndi isə o artıq fəaliyyətini dayandırdığı üçün biz yəqin ki, bu məsələni dərindən müzakirə etməməliyik. Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi".

### ERMƏNİLƏR ƏRAZİ BÜTÖVLÜYÜMÜZLƏ BAĞLI KOMPROMİSƏ GEDƏCƏYİMİZİ DÜŞÜNÜRDÜLƏR, LAKİN BU, SƏHV HESABLANMIŞ BİR ADDIM İDİ. ONLAR YANLIŞ İDİLƏR

"Ermənistan münaqişənin sülh yolu ilə həllini istəmirdi. Onlar vəziyyətin olduğu kimi qalmasını və onu dondurmaq istəyirdilər. Düşünürdülər ki, işğalı legitimləşdirə biləcəklər". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda ABŞ-ın Prinston Universitetindən olan Maykl Reynoldsun sualına cavabında səsləndirib. Ermənilərin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı kompromisə gedəcəyini düşündüklərini deyən dövlətimizin başçısı bildirib: "Hesab edirdilər ki, onların beynəlxalq sponsorları həmişə onların yanında olacaq və onlar üçün mübarizə aparacaqlar. Lakin bu, səhv hesablanmış bir addım idi. Onlar yanlış idilər".

### SÜLH SAZİŞİ HAQQINDA DANIŞIQLARIN BAŞLANILMASINI TƏKLİF EDƏN AZƏRBAYCAN OLUB

Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda ABŞ-ın Prinston Universitetindən olan Maykl Reynoldsun sualına cavabında söyləyib ki, 30 illik işğal onlara (Ermənistana – red.) heç bir üstünlük vermədi: "Əksinə, onlar regional inkişaf proseslərindən təcrid edildilər. Onlar rəsmən, lakin faktiki surətdə həqiqətən də müstəqil ölkə olmaq şansını itirdilər".

"Onlar indi özlərinə yeni ağa və ya ağalar axtarırlar. Lakin tarix onlara dərs verməlidir. Ümid edirik ki, onlar bunu başa düşəcəklər", - deyən dövlətimizin başçısı qeyd edib ki, erməni həmkarı ilə danışıqlarında sülh sazişinin, ilk növbədə, onların marağına xidmət etdiyini izah etməyə çalışdığını vurğulayıb. Prezident İlham Əliyev, həmçinin diqqətə çatdırıb ki, sülh sazişi haqqında danışıqların başlanılmasını təklif edən də Azərbaycan olub.

### ÜÇTƏRƏFLİ BƏYANAT ATƏŞKƏS RAZILAŞMASI DEYİL, SÜLH SAZİŞİ DƏ DEYİL

"İkinci Qarabağ müharibəsi bitəndə heç də çoxu sonra nəyin baş verəcəyini bilmirdi. Çünki üçtərəfli Bəyanat atəşkəs razılaşması deyil. O, həmçinin sülh sazişi də deyil. Beləliklə, sonra nəyin baş verəcəyi böyük sual işarəsi idi". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib.

Dövlətimizin başçısı qeyd edib: "Beləliklə, biz təşəbbüs göstərdik, biz inteqrasiya olunmuş Cənub Qafqaz, regional əməkdaşlıq, münasibətlərin normallaşması üçün gələcəyə baxışı irəli sürdük. Buna görə biz sülh danışıqlarına başlamaq təşəbbüsünü irəli sürdük. Bütün istiqamətlərdən səs çıxmadı. Biz müəyyən vaxt gözlədikdən sonra tamamilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun gələn beş prinsipi irəli sürdük. Ermənistan rəsmən ya bunları rədd etməli idi, ya da onları qəbul etməli idi. Rədd etsəydilər, bu, yenə də onların qeyri-konstruktiv olduğunu göstərəcəkdi, çünki bu prinsiplərdə beynəlxalq hüquqa zidd olan heç nə yox idi. Onların qəbul edilməsi isə psixoloji nöqteyi-nəzərdən, normal davranış sərgiləməyə razı olmaq nöqteyi-nəzərindən yəqin ki, onlar üçün çətin idi. Sonra isə bizdə Ermənistanın ciddi danışıqlarda iştirak etmək istəməməsi səbəbindən yenə də uzun fasilə oldu".

Dövlətimizin başçısı onu da bildirib ki, sülh sazişinin mətninə mövcud olmayan Dağlıq Qarabağı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır: "Biz onlara (Ermənistana) sülh sazişinin layihə variantının dörd nüsxəsini, dörd yeni variantını göndərdik. Onlar öz qeydlərini bildirdilər.

*Ardı Səh. 4*

# Möhtəşəm tədbirlərin ünvanı: - ŞUŞA!



Əvvəli-Səh-3

Biz onların sonuncu şərhini qırx gündən çoxdur ki, gözləyirdik. Biz bu şərhi, sadəcə, bir həftə bundan əvvəl aldıq. Bu da Vaşinqtondakı görüşdən əvvəl idi, çünki onlar onsuz da Vaşinqtondakı görüşün mənasız olduğunu başa düşdülər". Ermənistanın şərhində Azərbaycana qarşı ərazi iddialarının olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Bizim bu şərhlərdə gördüklərimiz yenə də Azərbaycana qarşı ərazi iddialarıdır. ABŞ və Avropa İttifaqının rəsmiləri ilə çoxsaylı danışıqlarımda Ermənistana və ABŞ-a tamamilə aydın idi ki, burada ikiistiqamətli yanaşma olmalıdır. Birincisi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, ikincisi, Azərbaycan hökuməti və Qarabağın erməni icması ilə danışıqlar. Buna görə də sülh sazişinin mətninə mövcud olmayan Dağlıq Qarabağı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar.

### ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI TARİXİ HADİSƏ İDİ

Prezident İlham Əliyev konfransda çıxışı zamanı Şuşa Bəyannaməsi ilə bağlı bildirdi ki, Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsi burada, Şuşada imzalanmışdır. Bu, tarixi hadisə idi: "Buna baxmayaraq, Azərbaycanla Türkiyə arasında münasibətlər de-fakto müttəfiq münasibətləri idi və biz bunu xüsusi olaraq son iyirmi ildə nümayiş etdirmişdik". Dövlətimizin başçısı Azərbaycan-Türkiyə müttəfiqlik münasibətləri regional inkişafın önəmli amil olduğunu vurğuladı: "Prezident Ərdoğanın Türkiyəyə rəhbərlik etdiyi son iyirmi ildə bizim münasibətlərimiz mənim onunla birgə səylərimiz nəticəsində təkcə qardaş xalqlar arasında deyil, eyni zamanda, müttəfiqlər arasında olan münasibətlərə çevrilmişdir".

"Biz bunu dəfələrlə nümayiş etdirmişdik. Buna görə, əlbəttə ki, bu, regional inkişafın önəmli amilidir", - deyə Azərbaycan Prezidenti qeyd edib.

### TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏRİN QARDAŞLIQ XARAKTERİNİ HEÇ NƏ DƏYİŞMƏYƏCƏK

Prezident İlham Əliyev beynəlxalq konfransda çıxışında bir daha bildirib ki, Türkiyə və Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakterini heç nə dəyişməyəcək. Dövlətimizin başçısı deyib: "Əminəm ki, Azərbaycanla Türkiyə nəinki təkcə bu müttəfiqliyin formatını qoruyub saxlayacaq, hətta onu gücləndirəcəkdir. Çünki yeni geosiyasi reallıqda bu, artıq regional sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevrilib. İstər bu hərbi komponent, enerji, kommunikasiyalar, istərsə də ticarət və sair sahələr olsun".

Bəli, əsrlərin sınaqlarından şərəflə çıxan Azərbaycan-Türkiyənin bir-birlərinə qardaş dəstəyi bugünümüzün reallıqlarında özünün aydın ifadəsini tapır. Dövlət o zaman güclü, qüdrətli olur ki, onun sabahını, gələcəyini düşünən, xalqını daim irəli aparan lideri vardır və bu bütün dünyaya bir nümunədir. Bəli, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Qələbə Zəfəri ilə- Qarabağ Azəröaycandır! Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir! Bir ürəkdir!".

### BİZ ƏMƏLİ NƏTİCƏLƏRƏ ÇEVRİLMƏYƏN BƏYANATLARDANSA, HƏMİŞƏ PRAKTİKİ ADDIMLAR YOLUNU SEÇMİŞİK

"NATO on beş il bundan əvvəl Ukraynaya və Gürcüstana NATO üzvlüyünü vəd etmişdir. Bu, mənim xatirimdədir. Mən NATO-nun Buxarestdəki Zirvə görüşündə iştirak edirdim və Ukrayna ilə Gürcüstan bəzi aparıcı Avropa ölkələrinin rəhbərləri tərəfindən NATO-ya üzvlük üçün tədbirlər planına qəbul edilməmişdir». Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında ifadə edib. Dövlətimizin başçısı bildirib: "Lakin bunun əvəzində elan olunmuşdur ki, onlar üzv olacaqlar. Nə zaman? Bunu heç kim söyləmədi, 15 il keçib. Onlar olduqları yerdədirlər. Lakin biz ordusunun gücü baxımından NATO-nun ikinci dövləti ilə saziş imzaladıq və bu ciddidir. Beləliklə, biz əməli nəticələrə çevrilməyən bəyanatlardansa, həmişə praktiki addımlar yolunu seçmişik".

**RƏFİQƏ KAMALQIZI**

---

# Yeni Azərbaycan Partiyası ICAPP-ın tədbirində təmsil olunub






Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) təşkilatçılığı, Koreya Respublikasının hakim Xalqın Gücü Partiyasının və müxalif "Minjoo" (Demokratik) Partiyasının birgə evsahibliyi ilə 2023-cü il 30 aprel – 3 may tarixlərində Koreya Respublikasının Busan şəhərində ICAPP Daimi Komitəsinin 39-cu iclası və İCAPP Biznes Şurasının 1-ci iclası keçirilib.

Mayın 1-də təşkilatın hazırkı fəaliyyətinə və gələcək planlarına dair müzakirələrin aparıldığı Daimi Komitənin 39-cu iclasında ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq ötən il noyabrın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü və evsahibliyi ilə Bakıda "Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu" mövzusunda ICAPP-ın xüsusi konfransının uğurlu təşkilinə görə bir daha təşəkkür edib və Azərbaycan Respublikasının Prezidenti, YAP Sədri İlham Əliyev tərəfindən konfrans iştirakçılarına məktubun ünvanlanmasını tədbirin əhəmiyyətinə verilən yüksək qiymətin bariz göstəricisi olduğunu vurğulayıb. Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli sözügedən konfransın Bakıda keçirilməsi ilə bağlı YAP-ın təşəbbüsünə göstərdiyi dəstəyə görə ICAPP rəhbərliyinə və Daimi Komitənin üzvlərinə minnətdarlıq edərək qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətindən bəhs edib.

Mayın 2-də "İqlim böhranı dövründə Asiya biznesinin imkanları və çətinlikləri" mövzusunda keçirilmiş ICAPP Biznes Şurasının 1-ci iclasında Azərbaycanı "Millennium Tourism & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru Ruslan Quliyev və "Bakı Tikiş Evi ASC"nin sədr müavini Elnur Rəhimov təmsil ediblər. İclasın "Daha yaxşı gələcək üçün dünyamızı dəyişmək: siyasi partiyaların biznesdə rolu" mövzusunda keçirilən birinci sessiyasında çıxış edən R.Quliyev, eləcə də "İqlim dəyişikliyi və Asiyanın enerji müstəqilliyi məqsədi ilə karbon neytrallaşdırılması" adlı ikinci sessiyada müzakirələrdə iştirak edən E.Rəhimov tədbir iştirakçılarına Azərbaycanda yaradılmış əlverişli biznes mühiti, qeyri-neft sektorunun inkişafı ilə bağlı görülmüş işlər, bərpa olunan enerji mənbələri və "yaşıl enerji" sektorunun inkişafına dövlət tərəfindən göstərilən diqqət, işğaldan azad olunmuş bölgələr də daxil olmaqla, ölkədə xarici dövlətlər və şirkətlərlə birgə su, külək və günəş enerjisindən istifadə sahəsində həyata keçirilən genişmiqyaslı layihələr barədə ətraflı məlumat veriblər.

Tədbirin sonunda iştirakçılar tərəfindən iqlim dəyişikliyi ilə mübarizənin, habelə təmiz və bərpa olunan enerjidən istifadənin genişləndirilməsinin əhəmiyyətinin vurğulandığı Busan Bəyanatı qəbul edilib.

Mayın 3-də tədbir iştirakçıları "Busan World Expo 2030" sərgisi ilə bağlı brifinqdə iştirak ediblər. Nümayəndə heyətinin səfəri mayın 3-də başa çatıb.

# Azərbaycan -Türkiyə: BİR YUMRUQ!



## Prezident İlham Əliyev: "Türkiyə və Azərbaycan hər zaman bir yerdədir"





***Azərbaycan ilə Türkiyənin əməkdaşlığı bütün sahələrdə dinamik şəkildə inkişaf edir və bu həm regionda, həm də regiondan kənarda böyük önəm daşıyır. İki dost və qardaş ölkənin rəhbərləri və xalqları arasındakı münasibətlərin yüksək səviyyədə olmasının tarixi kökləri var. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Türkiyə ilə Azərbaycan əlaqələrinə xüsusi önəm verərək və bu əlaqələrin daha da möhkəmlənməsi üçün uzaq gələcəyə hesablanmış addımlar atmışdır. Tarixi köklərə malik Azərbaycan-Türkiyə münasibətləri bu gün ən yüksək səviyyədədir.***

Azərbaycan-Türkiyə birliyi tarixi birlikdir və bu birlik əsrlər boyu davam edəcək. Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən ”TEKNOFEST” aerokosmik və texnologiya festivalında çıxışında Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin qeyd etdiyi fikirləri diqqətə çatdırıb: ”Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”. Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, ”Bir millət, iki dövlət”, əlavə də etmək istəyirəm, ”Bir yumruq!”.

### ”AZƏRBAYCAN TƏK DEYİL, TÜRKİYƏ AZƏRBAYCANIN YANINDADIR”

Türkiyə hər zaman Azərbaycanın yanında olub, ölkəmizin haqq işini dəstəkləyib. Bu əlaqələrin hazırkı səviyyəyə gəlib çatmasında dövlət başçılarının qarşılıqlı səfərləri, Türkiyənin daim Azərbaycanın, Azərbaycanın da Türkiyənin yanında olması önəmli əhəmiyyət kəsb edir. Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın olan ölkələr tapmaq mümkün deyil. İki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, daha bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları da bu gerçəkliyi bir daha təsdiqləyir. ”İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi” deyə Prezident çıxışında bildirib.

### “ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI İLƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN RƏSMƏN MÜTTƏFİQ OLDULAR”

Müasir Azərbaycanın tarixində müstəsna yer tutan hadisələrdən biri də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanmasıdır. Bu hadisə iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi şanlı tariximizin ən qürurverici səhifələrindən biridir. ”Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular”, - deyən Prezident tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu qeyd edib: ”Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir”. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu Bəyannamənin müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin bir çox aspektini əhatə etsə də, Hərbi Doktrinada nəzərdə tutulan xarici hərbi və siyasi təhdidlərin neytrallaşdırılmasında və ya onlara qarşı balans yaradılmasında xüsusi əhəmiyyət kəsb edir.

Dövlətlərarası strateji əlaqələrlə yanaşı, ortaq tarix və milli-mənəvi dəyərlər xalqlarımızın sıx birliyini - həmrəyliyini təmin edən amillərdir. Ölkələrimiz arasında siyasi münasibətlər ən yüksək səviyyədədir. İqtisadi-ticari əlaqələr də uğurla inkişaf edir. Azərbaycan Türkiyədə, Türkiyə isə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, TAP kimi birgə layihələr regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa mühüm töhfələr verir. Bunlarla yanaşı, Azərbaycan və Türkiyə daim bir-birini ən yüksək səviyyədə dəstəkləyir, hər iki ölkənin milli maraqlarının qorunmasında qətiyyətli mövqe nümayiş etdirirlər. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələr kimi çıxış edir.

### ”TÜRKİYƏ BÖYÜK TÜRK DÜNYASININ BİRLƏŞMƏSİ İŞİNDƏ ÇOX BÖYÜK ROL OYNADI”

Əlbəttə ki, Türkiyənin gündəngünə güclənən, sürətlə inkişaf edən, beynəlxalq aləmdə söz sahibi olan ən qüdrətli ölkələrdən birinə çevrilib. Siyasi, iqtisadi, hərbi, texnoloji və digər sahələrdə əldə etdiyi mühüm nailiyyətləri ilə dünyanın ən qabaqcıl ölkələri sırasındadır. ”Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır” – deyə Prezident diqqətə çəkib.müasir Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzinə çevrilib. Belə bir dövlətin dünya çapında özünəməxsus yeri var.

Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dövlət başçısının bu ölkəyə hər bir səfəri tarixi hadisələrlə yadda qalır: ”Mən bu il üçüncü dəfə qardaş ölkəyə səfər edirəm. Fevral ayında olmuşam, mart ayında olmuşam, bu gün buradayam. Əziz qardaşım, növbə Sizindir. Biz Sizi gözləyirik, bütün Azərbaycan xalqı Sizi gözləyir, Sizi öpür, qucaqlayır, Sizə öz hörmət və sevgisini çatdırır. Türkiyə-Azərbaycan birliyi əbədidir!”, - deyə Prezident İlham Əliyev qeyd edib.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil





# Prezidentdən şəhər hədiyyəsi

***Azərbaycan və Türkiyə dost, qardaş, həm də müttəfiq ölkələrdir. Uzun illərdən bəri davam edən bu münasibətlər son 20 ildə iki ölkə arasında daha da yaxınlaşmaya, səmimi münasibətlərə gətirib çıxarmışdır. Türkiyə hər zaman Azərbaycanın yanında, Azərbaycan isə Türkiyənin yanındadır. Bunu 2020-ci ildə 44 günlük Vətən müharibəsində bir daha gördük. Gördük ki, Türkiyə müharibənin hər anında Azərbaycanın yanında oldu. Bu ilin 6 fevralında baş verən zəlzələ nəticəsində minlərlə insanın həyatını itirdiyi, şəhərlərin yerlə yeksan olunduğu Türkiyədə isə ilkin olaraq Azərbaycan göründü. Yardımları, canlı qüvvələri ilə Türkiyənin yanında oldu.***

Aprelin 29-da İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirak edən Prezident İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğanla birgə bu tədbir çərçivəsində həm də Azərbaycan dövlətinin zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində inşa edəcəyi min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməlini qoyması bir daha Azərbaycan-Türkiyə münasibətlərinin dərin köklərə malik olduğunu göstərdi. Bu, həm də seçkilərə sayılı günlər qalan Türkiyədə Rəcəb Tayyib Ərdoğanın qonşu və müttəfiqləri ilə münasibət kontekstində nüfuzunu göstərən amildir.

### Türkiyədə Azərbaycan şəhəri

Azərbaycanın Türkiyəyə bu qardaşlıq köməyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdir: Əziz qardaşım İlham Əliyev lap əvvəldən mərkəzi Pazarcık olan zəlzələdə bizi heç vaxt yalnız qoymadı. İlk andan etibarən axtarış-xilasetmə heyətləri Kahramanmaraşda bizimlə birlikdə oldu. Onunla da kifayətlənmədi, daha sonra İlham qardaşım Kahramanmaraşda min evin inşa ediləcəyinə söz verdi. Təbii ki, orada məktəbi, məscidi, yataqxanası və yaşayış binaları olan bir Azərbaycan şəhəri inşa etməyi qərara aldı. Bu gün fürsətdən istifadə edərək, indi onun təməlini qoyacağıq... Layihə möhtəşəmdir. Bu layihəni, İnşallah, qısa müddətdə haqqı çatanlara Azərbaycanın əli ilə təqdim edəcəyik.

Dövlətimizin başçısı Türkiyənin hər zaman Azərbaycanın yanında olmasını vurğulayaraq demişdir: İki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi.

İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi.

Bəli, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyənin dostluğu, qardaşlığı bu gün elə bir pilləyə çatıb ki, onlar bu münasibətləri yeni müstəvidə-müttəfiqlikdə davam etdirirlər. Bütün dünyanın həsəd apardığı bu münasibətlər isə hər iki dövlət üçün mühüm əhəmiyyətə malikdir. Ən birincisi ona görə ki, bu münasibətlər türkçülüyə xidmət edir.

### Yardıma ilk olaraq Azərbaycan getdi

Fevralın 6-sı Türkiyənin 11 şəhərini əhatə edən zəlzələ baş verən gündən bəri Azərbaycan Türkiyənin yanında oldu. Bu, bir qonşuluq münasibəti, dostluq deyil. Bu, qardaşlığın göstəricisi idi. Bu, bir ürəkdə minlərlə döyüntünün göstəricisi idi.

Zəlzələ ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən qardaş Türkiyəyə fevralın 6-dan martın 15-dək göstərilmiş humanitar və maliyyə yardımının ümumi məbləği 76 milyon 344 min 930 manat (44 milyon 908 min 783 ABŞ dolları) təşkil edir. Belə ki, bu müddətdə Türkiyəyə 53 milyon 568 min 530 manat (31 milyon 510 min 900 dollar) dəyərində humanitar yardım göstərilib. Birbaşa göstərilmiş maliyyə yardımının ümumi məbləği isə 22 milyon 776 min 400 manatdır (13 milyon 397 min 883 dollar).

Qeyd edək ki, qardaş Türkiyədə baş verən təbii fəlakətin ağır nəticələrini aradan qaldırmaq məqsədilə Azərbaycanın dövlət qurumları səfərbər olaraq köməyə tələsdilər. Prezident İlham Əliyevin göstərişinə əsasən, fəlakət zonasına ilk olaraq Azərbaycanın xilasedicilәri çataraq dağıntılar altında qalan insanları çıxarmağa başladılar. Azərbaycandan göndərilən 669 xilasedici Hatay, Antakiya, Kahramanmaraş, Adıyaman və digər şəhərlərdə xilasetmə əməliyyatlarında fəal iştirak edib. Xilasedicilərimiz 53 nəfəri xilas edib, dağıntılar altından 780 cəsədi çıxararaq yaxınlarına veriblər. Fəlakət bölgəsinə 121 həkim və tibbi personal, 150 könüllü gedərək qardaş xalqın dərdinə şərik olub və səmərəli fəaliyyət göstərib. Azərbaycanın hərbi həkimləri 3123 nəfər tibbi xidmət göstərib, ağır yara alanları müalicə edərək sağaldıblar.

Dövlət qurumları tərəfindən Türkiyəyə 6665 çadır, 145 konteyner tipli mobil ev göndərilib, 2 səhra hospitalı və 4 səhra mətbəxi qurularaq zəlzələdən zərər çəkən insanlara xidmət edib. Havaların soyuq keçməsi evləri zəlzələ nəticəsində dağılan insanları daha ağır vəziyyətə saldığından bu problemləri aradan qaldırmaq məqsədilə dövlət qurumları tərəfindən zəlzələ bölgəsinə 786 elektrik generatoru, 11 min 299 ədəd qızdırıcı və texniki avadanlıq, 95 min 580 yataq və yataq ləvazimatı, 207 min 65 dəst isti paltar, 252 ton yanacaq göndərilib.

Heydər Əliyev Fondunun Türkiyədə baş verən zəlzələyə ilk reaksiya verən təşkilatlardan biri olduğunu xüsusilə vurğulamaq lazımdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə Türkiyədəki zəlzələ bölgəsinə 2518 çadır, 135 elektrik generatoru, 19 min 894 ədəd yataq və yataq ləvazimatı, 404 min 58 adda dərman və tibbi ləvazimat, 143 min 955 dəst isti geyim, 2653 qızdırıcı avadanlıq, 6603 qutu ərzaq və qida məhsulu və digər zəruri əşyalar alınaraq göndərilib. Ümumilikdə Heydər Əliyev Fondu tərəfindən Türkiyənin zəlzələ bölgəsinə 9 milyon 485 min 563 manat (5 milyon 579 min 743 dollar) məbləğində yardım göstərilib.

Ümumilikdə dövlət qurumları tərəfindən zəlzələ bölgəsində zərər çəkənlərə 44 milyon 82 min 967 manat (25 milyon 931 min 157 ABŞ dolları) məbləğində humanitar yardım göstərilib. Humanitar yardımların Türkiyəyə çatdırılması üçün 16 təyyarədən, 459 TIR, 25 vaqondan istifadə olunub.

Onu da vurğulayaq ki, Türkiyənin Azərbaycandakı səfirliyinin yardım barəsində müraciətindən az sonra Azərbaycan xalqı türk qardaşlarına isti paltar, ərzaq toplamağa və maliyyə vəsaitləri köçürməyə başladılar. Bakıda və regionlarda təşkil olunan yardımtoplama məntəqələrinə minlərlə insan üz tutaraq isti paltar və ərzaq gətirdilər.

Zəlzələdən sonra bütün xalq ayağa qalxdı. Hər kəs zərərkəkmiş insanlara, qardaş-bacılarımıza yardım göstərmək istədi. Zəlzələnin ilk günləri Bakıda və Naxçıvanda Türkiyəyə yardımla bağlı kadrları izləyərkən qürur hissi keçirdik. İki dövlətin bir milləti olan insanların can yanğısı ilə əllərindən gələni zəlzələ bölgəsinə çatdırmaq cəhdi yaxınlarını orada düşdüyü ağır vəziyyətdən çıxarmağa böyüklü-kiçikli yardım idi.

Bu, bizim bir millət, qardaş, dost olmağımızla yanaşı, həm də oxşar taleyimizlə bağlı idi. Çünki 1990-cı illərin əvvəllərində soydaşlarımız ermənilər tərəfindən Qarabağdan zorla çıxarılanda onlar da belə ağır vəziyyətlə üz-üzə qalmışdılar. Evlərindən heç nə götürə bilməmişdilər. Qışın soyuğunda yalınqat bir paltarla yurdlarını tərk etməli olmuşdular. Onların əksəriyyəti meşə və dağlarda donaraq ölmüşdü.

Oxşar talelər belə hadisələr zamanı birləşir. Çünki hadisələr ayrı-ayrı olsa da, yaşananlar eyni idi. Bu səbəbdən də o ağır günləri yaşayan bir xalq kimi Türkiyədə zəlzələdən əziyyət çəkənlərə yardım edən ilk Azərbaycan oldu. Yardımlarımız bu gün də davam etdirilir. Çünki türklər bizim can qardaşımızdır. Onların kədəri də, sevinci də bizimlədir.

Dövlətimizin başçısı zəlzələnin ilk günündə də, sonra Türkiyənin Azərbaycandakı səfirliyində olarkən də, fevralın 25-də Türkiyəyə səfəri zamanı da Prezident Rəcəb Tayyib Ərdoğana bu böyük itki ilə bağlı başsağlığı verdi, Azərbaycan xalqının Türkiyənin kədərlərinə şərik olduğunu bildirdi.

Dövlətimizin başçısının aprelin 29-da Türkiyəyə səfəri zamanı Kahramanmaraşda yeni bir şəhərin salınmasını bildirməsi isə zəlzələnin nəticələrinin sonadək aradan qaldırılmasında Azərbaycanın Türkiyənin yanında olacağını bir daha göstərdi.

### Zəlzələ bölgəsinə yeni həyat qayıdacaq

Bəli, iki dövlət bir millətin kədəri bir-birinin kədəri, sevinci sevincidir. Ümidvarıq ki, böyük Türkiyə zəlzələnin nəticələrini qısa zamanda aradan qaldıracaq, 11 füsunkar şəhər yenə əvvəlki görkəminə qayıdacaqdır. Bu dəhşətli hadisə, əsrin fəlakəti heç vaxt unudulmayacaq. İtkilərin hər biri qəlbimizdə yaşayacaq. Ancaq nə etməli ki, həyat davam edir. Qoy həyatın davamında bu fəlakət Türkiyə üçün son olsun.

Azərbaycan qürur duyur ki, Kahramanmaraşda bir şəhər dövlətimiz tərəfindən salınacaqdır. Bu, çox mütərəqqi addım olmaqla yanaşı, eyni zamanda yeni bir tarixin yazılmasıdır. O tarix ki, səhifələri o şəhərdə yaşayan insanların evinə, iş yerinə, uşaqların məktəblərinə, əhalinin sağlamlığına xidmət edən səhiyyə ocağına və digər zəruri sosial obyektlərə yenidən sahib olmasının sevinci həkk olunacaq.

Yurd salmaq isə Azərbaycan xalqının qədimdən bu günə qədər gətirib çıxardığı ölməz ənənələrindən biridir. Yurd salanı Allah qoruyar. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda salınan yurdlarla bərabər, qonşuluq, dostluq ənənələrini yaşadaraq, müttəfiqlik prinsipini qoruyaraq Kahramanmaraşda yeni bir şəhərin salmasını üzərinə götürən dövlətimizin başçısını Uca Tanrımız qorusun. Qorusun ki, həmişə başımız dik, üzümüz ağ və qürurlu olaq.

***Mətanət Məmmədova***

# Azərbaycanın müasir tarixi Heydər Əliyevin adı ilə bağlıdır!

*YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*

***"Heydər Əliyev İli" çərçivəsində mayın 3-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin partiyanın Sumqayıt şəhər təşkilatının inzibati binasında gənclərlə görüşü keçirilib. Tədbirdə YAP-ın Sumqayıt şəhər və Qubadlı rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər.***







Əvvəlcə Dövlət himni səsləndirilib. Sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Sumqayıt şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Ramiz Hüseynov ulu öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Onun sözlərinə görə, milli sərvətimiz olan Heydər Əliyev ideyalarının gənc nəslə aşılanması mühüm əhəmiyyətə malikdir.

Sonra çıxış edən YAP Veteranlar Şurasının üzvü Sudeyf İmamverdiyev qeyd edib ki, Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi məhz ulu öndər Heydər Əliyevin xidmətləridir". S.İmamverdiyevin sözlərinə görə, 1990-cı illərin əvvəlində Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını görən 91 nəfər ziyalı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona rəhbərlik etməsini təklif etdi. Çünki xalqın ümidi məhz Heydər Əliyevə idi. Ulu Öndərin cavabı müsbət oldu, 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyası yaradıldı, 1993-cü ilin iyun ayında isə Ümummilli Lider hakimiyyətə qayıdaraq Azərbaycanı parçalanmaqdan xilas etdi. S.İmamverdiyev deyib ki, Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirib.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov isə bildirib ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının gənclərə aşılanmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, Heydər Əliyev bənzərsiz şəxsiyyətdir. Ulu Öndər hakimiyyətdə olduğu bütün dönəmlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib, həmin dövrlərdə bütün sahələr inkişaf edib.

N.İsmayılov deyib ki, ölkəmizdə gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. O qeyd edib ki, gənclər Ümummilli Liderin müəyyənləşdirdiyi yolla getməlidir: "Çünki bu yolun alternativi yoxdur. Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir".

YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib. Onun sözlərinə görə, Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. T.Rüstəmov söyləyib ki, 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin timsalında Heydər Əliyev siyasətinin parlaq nəticəsidir. Sonra gənclərin sualları cavablandırılıb.

# Azərbaycan Ulu Öndərin rəhbərliyi ilə tarixi uğurlar qazanıb







"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Ağcabədi rayon təşkilatı mayın 3-də rayon Mədəniyyət Mərkəzində "Dünyanı heyrətə salan insan" mövzusunda tədbir keçirib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.

Tədbirdə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında xidmətləri əvəzsizdir. O, hakimiyyətdə olduğu illərdə Azərbaycanı sosial-iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən inkişaf etmiş bir ölkəyə çevirmişdir. Azərbaycanın hərtərəfli inkişafı ulu öndər Heydər Əliyevin adı, şəxsiyyəti, dövlətçilik təfəkkürü, idarəetmə məharəti və yorulmaz fəaliyyəti ilə sıx bağlı olmuşdur: "Ən yüksək tribunalardan böyük iftixarla "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləyən dahi şəxsiyyət dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoyub".

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib ki, ulu öndər Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, gələcəyə hesablanmış məqsədyönlü addımları ilə xalqımız qarşısında müstəsna xidmətlər göstərmişdir. Heydər Əliyev ötən əsrin hələ 70-80-ci illərində respublikanı nəhəng tikinti meydançasına çevirərkən, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verərkən, bir sıra yeni təhsil ocaqlarının, o cümlədən mədəniyyətin, fundamental və tətbiqi elmlərin sıçrayışlı inkişafına nail olarkən məhz gələcək tərəqqinin, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməlini qoymuşdur.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov çıxış edərək bildirib ki, Ulu Öndərin tarixi xidmətlərindən biri də bu gün ölkəmizin siyasi mühitində xüsusi rolu olan Yeni Azərbaycan Partiyasını yaratmasıdır. Təsis edilməsinin 30 illik yubileyini keçən il təntənə ilə qeyd etdiyimiz Yeni Azərbaycan Partiyası daim siyasi mübarizələrin önündə getmiş, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunmasında, milli dövlətçilik ruhunun, qələbəyə inam hissinin formalaşmasında, qarşıya qoyulan məqsədlərin əldə edilməsinə öz töhfəsini vermişdir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aqil Abbas vurğulayıb ki, Azərbaycanın inkişafına yönəlmiş siyasətin təməlini qoymuş ulu öndər Heydər Əliyev xalqımıza böyük nailiyyətlər qazandırmışdır. O, Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü və sabahı görünür.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov çıxışında qeyd edib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ilin oktyabrında prezident seçilməsindən sonra müstəqil dövlət quruculuğunun əsası qoyulmuşdur. Ümummilli Lider, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, respublikamızın sosial-iqtisadi yüksəlişinə xidmət edən addımlar atılmış, ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Azərbaycan Ulu Öndərin rəhbərliyi ilə tarixi uğurlar qazanmışdır. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim edilib.

# Heydər Əliyev- 100



***"Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Tarix yazan Böyük Şəxsiyyət" adlı dəyirmi masa keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, AMEA-nın müxbir üzvü, professor Amin İsmayılov, YAP Təftiş Komissiyasının üzvü, millət vəkili Elman Nəsirov, YAP Pirallahı rayon təşkilatının sədr müavini Məcid Əhmədov, tarixçi alim İlyas Hüseynov və Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov iştirak edirdilər.***

# "Tarix yazan Böyük Şəxsiyyət"

## *Bu mövzuda "Səs" qəzetində dəyirmi masa keçirilib*

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin əməkdaşı Vəli Vəliyev ənənəvi olaraq "Səs" qəzetinin ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrlə bağlı dəyirmi masalar keçirdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "2023-cü ilin Heydər Əliyev ili" elan olunması və Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə redaksiyamızda silsilə olaraq dəyirmi masalar keçirilir. "Səs" qəzeti olaraq cəmiyyətdə nüfuz sahibi olan bir neçə ziyalının iştirakı ilə Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və formalaşdırılması istiqamətində gördüyü mühüm işlərə bir daha nəzər salmağa qərar verdik, - deyən qəzetinin əməkdaşı Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, sosial-siyasi həyatda tərəqqinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söylədi.

O, Ulu Öndər Heydər Əliyevin Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxararaq uzaqgörənliyi, fədakarlığı, müdrikliyi ilə müstəqil dövlətimizin təməlini möhkəmlətdiyini diqqətə çəkdi: "Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndərin hakimiyyətə gəldiyi çətin ictimai-siyasi hadisələrlə müşahidə olunduğu o illərin canlı şahidi olmuş dəyirmi masa iştirakçılarının fikirlərini bölüşməsi yaxşı olardı".

**"SƏS" QƏZETİNİN ƏMƏKDAŞI:**

- Elman müəllim, məlumdur ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi Azərbaycan dövlətçiliyini məhvolma təhlükəsindən xilas etdi. Çətin, ziddiyyətlərlə dolu bir dövdə Ulu Öndər hakimiyyətə gələrək, mövcud vəziyyətdən çıxış yollarını taparaq müstəqilliyimizin təməlini möhkəmləndirdi. O illərdə, Azərbaycanda baş verən hadisələri, qarşıdurmaları necə xarakterizə edərdiniz?

### ÜMUMMİLLİ LİDER AZƏRBAYCANDA DEMOKRATİK İNKİŞAF PROSESİNİN ƏSASINI QOYDU

**ELMAN NƏSİROV:**

- Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə ölkəmizdə "2023-cü il Heydər Əliyev ili" elan olunub. Ölkəmizdə, eləcə də ondan kənarda çoxsaylı tədbirlər keçirilir. Bir ifadəni vurğulamaq yerinə düşər. Deyirlər ki, elə şəxslər var ki, onların ömrü xalqın ömrü qədərdir. Bu, həqiqətən də belədir. Heydər Əliyev, məhz belə şəxsiyyətdir. Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaradılması, xarici siyasət kursunun həyata keçirilməsi, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət sahələrinin tərəqqisi, hüquqi və demokratik dövlət quruculuğu, məhz Ulu Öndərin adı ilə bağlıdır.



Qeyd edim ki, Fransa müqavimət hərəkatının lideri Şarl de Qoll faşistlərin viran qoyduğu və xarabazara çevirdiyi Paris şəhərinə 1944-cü ildə qədəm qoyarkən ürək ağrısı ilə bu sözləri söyləmişdi: "Fransada dövlətçilik yoxdur, deməli, heç nə yoxdur". O, fransızların itirilmiş dövlətçiliyini bərpa etdi. Fransızlar dövlətçilik qarşısında bu misilsiz xidmətinə görə, Şarl de Qolla minnətdardırlar.

Ümummilli Lider Heydər Əliyev də. ilk növbədə. Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni düçar olduğu xaos vəziyyətindən çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli barışığa nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı. Azərbaycan xalqı da dövlətçilik qarşısında müstəsna və misilsiz xidmətlərinə görə zəmanəmizin dühası Heydər Əliyevə əbədi olaraq minnətdardır. Bütün mənalı ömrünü Azərbaycan xalqının tərəqqisinə həsr etmiş Ulu Öndər Heydər Əliyev özünün əməli fəaliyyəti ilə doğma xalqının əbədi məhəbbətini qazanaraq, əsl Ümummilli Liderə çevrilmişdir. Ulu Öndər həmişə xalqla birgə olduğunu, onun taleyi ilə yaşadığını tarixi xidmətləri ilə sübut etmişdir. 1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra mövcud vəziyyət öz həllini tapmağa başladı.

Dahi Şəxsiyyət Heydər Əliyev 1993-cü il prezident seçkilərində xalqın səsini qazandı. Bundan sonra Azərbaycan xalqı, artıq tam əmin oldu ki, hakimiyyət sükanı etibarlı əllərdədir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışı və qətiyyətli addımları nəticəsində, çox keçmədi ki, ölkə böhran vəziyyətindən çıxarıldı. Bütün sahələrin inkişafına xüsusi diqqət yetirildi. Xalqın sabahına hesablanmış mütərəqqi siyasət həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında və beynəlxalq əlaqələrdə dönüş yarandı. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci ildə Konstitusiyasının qəbul edilməsinə, Şərqlə Qərbi birləşdirən Qədim İpək Yolunun bərpa edilməsinə və digər mühüm əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olundu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qorunması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.







Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına öz töhfələrini verdi. Dahi Liderin düşünülmüş və müdrik siyasəti nəticəsində, qısa zamanda, Azərbaycan iqtisadiyyatı inkişaf etdi. Bununla da, Azərbaycanın iqtisadi tərəqqisi başlanmış oldu. Ümummilli Lider Azərbaycanda demokratik inkişaf proseslərinin əsasını qoydu.

## AZƏRBAYCANIN BUGÜNKÜ UĞURLARININ MÜKƏMMƏL TƏMƏLİ



**AMİN İSMAYILOV:**

- Bu gün ölkəmizin hər bir yerində Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə tədbirlər keçirilir. Yeni Azərbaycan Partiyası da Prezident İlham Əliyev tərəfindən "2023-cü ilin Heydər Əliyev ili" elan olunması ilə bağlı Fəaliyyət Proqramını təsdiq edib. Həmin Proqrama uyğun olaraq respublikanın bütün guşələrində, təşkilatlarda partiyanın digər təşkilatlarla müştərək olaraq tədbirlər təşkil olunur və bu davam etdirilir. Belə tədbirlərin tarixi əhəmiyyəti var. Biz o illəri yaşamış insanlarıq və həmin hadisələri gənclərə aşılamaq çox böyük əhəmiyyətə malikdir. Heydər Əliyev irsinin öyrənilməsi təkcə bir il "Heydər Əliyev ili" çərçivəsində keçirilən tədbirlərlə tamamlanmır. Bütün zamanlarda bu irs öyrənilməlidir.

Müstəqil dövlətimizin uğurlarından qürurla söz açarkən, bu nailiyyətlərin təməlinin qoyulduğu zamanı qeyd etməliyik. Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı. Müstəqilliyimizin ilk illərində siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi.



Onun bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. Sonrakı hadisələr daha müsbət məcralara yönəldi, ölkədə sabitlik yarandı və 1993-cü ilin oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini möhkəmlətdi və əbədi etdi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu.

*(Ardı var)*

***Nəzakət ƏLƏDDİNQIZI***

***Dünyanın hər bir ölkəsində ictimai fikri formalaşdıran Kütləvi İnformasiya Vasitələri cəmiyyətdə böyük təsir gücünə malikdir. Söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqları da pozulmuş olur.***

# Demokratiyanın meyarı və ölçüsü: söz və mətbuat azadlığı

TƏHLİL

1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşmış jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə bütün dünya hökumətlərinə mətbuat azadlığının və demokratikliyinin təmin edilməsinə yardımçı olmağa çağıran "Vindhuk Bəyannaməsi"ni qəbul edirlər. Bununla bağlı BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü kimi qeyd etməyi qərara almışdır. 1991-ci il mayın 3-də UNESCO bu məramı ifadə etmiş sənədi - Namibiyanın Vinduk şəhərində qəbul olunmuş Bəyannaməni dəstəkləyib və həmin günü Ümumdünya Mətbuat Azadlığı Günü kimi qeyd etmək təklifini Birləşmiş Millətlər Təşkilatına göndərib. 1993-cü il dekabrın 20-də BMT Baş Məclisinin qərarı ilə mayın 3-ü Ümumdünya Mətbuat Azadlığı Günü elan olunub. Beləliklə, 3 May - Ümumdünya Mətbuat və Söz Azadlığı Günü kimi qeyd olunur. Ümumdünya Mətbuat Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına önəm verildiyi ölkələrdə, o cümlədən, Azərbaycanda da qeyd olunur. Təbii ki, söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsüdür. Bu baxımdan ölkəmizdə bu dəyərlərin mövcudluğu Azərbaycan mətbuatın inkişafında önəmli rol oynayır.

Uzun bir yol keçən milli mətbuatımıza müstəqillik dövründə daim diqqət və qayğı göstərilib və bu davamlıdır. Belə ki, dövlətimizin inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmaqla yanaşı, rəqabət qabiliyyətini daha da yüksəltmişdir. Müstəqillik dövründə milli mətbuatımızın inkişafı, ölkəmizdə söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Milli mətbuata olan münasibət və qayğısı nəticəsində azad və demokratik mətbuatımız cəmiyyətin operativ və obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Təbii ki, Ulu Öndər Heydər Əliyevin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın inkişafında mühüm faktlardır. Ulu Öndər Heydər Əliyev ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Müasir dövrümüzdə zamanın tələbinə uyğun olaraq Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirərək belə deyir: "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

## MƏTBUATA GÖSTƏRİLƏN DAVAMLI DÖVLƏT QAYĞISI

Uğurlu bir inkişaf yolu keçən milli mətbuatımıza dövlətimizin diqqəti davamlıdır. Mətbuatımızın son illəri əhatə edən qısa bir tarixinə nəzər salsaq bunu görmüş olarıq. Belə ki, dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların



imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. 2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrıldı. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər Sərəncama əsasən isə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrıldı. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı.

"Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında" 16 iyul 2018-ci il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının bir nümunəsi idi. Məlum Sərəncamla Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün dövlət büdcəsindən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılmışdı.

Milli mətbuatımıza göstərilən diqqətin bariz nümunəsidir ki, dövlət başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında" 22 iyul 2019-cu il tarixli Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrıldı. Qeyd edək ki, dövlətimiz tərəfindən qəzetlərə ayrılan diqqət və qayğı sistemli və davalı xarakter daşıyır. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

## ƏSASLI İSLAHATLARIN APARILMASINA YARANMIŞ ZƏRURƏT

Müasir dövrümüzdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır. Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. Bütün bunlar göstərir ki, Azərbaycan dövləti milli mətbuatımıza daim diqqət göstərir və onun inkişafına yönələn tədbirlər həyata keçirilir.

## ŞƏHİD JURNALİSTLƏRİMİZ

Müasir bir dünyada yaşadığımız dövrdə öz vəzifə borclarını şərəflə yerinə yetirən mətbuat işçilərinin şəhid olmalarının da şahidi oluruq. Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində erməni diversantları tərəfindən basdırılan tank əleyhinə minanın partlaması nəticəsində Azərbaycan yenidən erməni terrorunun acı nəticələrini yaşamış oldu. Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov, habelə rayon icra hakimiyyətinin nümayəndəsi Arif Əliyevin həlak olması, daha 4 nəfərin yaralanması erməni faşist ideolgiyanının daha bir göstəricisidir. Jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları buna lazımı reaksiyanı vermədilər. Öz vəzifə borcunu yerinə yetirən insanların şəhid olması əlbəttə ki, heç bir məntiqə sığmır. Xatırladaq ki, Birinci Qarabağ müharibəsi dövründə də bir neçə mətbuat işçiləri öz vəzifələrini yerinə yetirərkən həlak olmuşdur. Ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adını almış jurnalistlərimiz Çingiz Mustafayev, Salatın Əsgərova, Fəxrəddin Şahbazov və başqaları vəzifə borclarını yerinə yetirərkən həlak olublar.

## DÜZGÜN VƏ QƏRƏZSİZ İNFORMASİYALARI DÜNYAYA ÇATIRAN MƏTBUATIMIZ

Bu gün dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan Azərbaycanın uğurlarının dünyaya çatdırılmasında milli mətbuatın rolu əvəzsizdir. Ölkəmizdə demokratik proseslərin inkişafı, milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Bu gün ölkəmizdə media azadlığı təmin olunub, internet media inkişaf edib, jurnalistlərin sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Azərbaycan mediası hazırda bölgə üçün ən qabaqcıl nümunələrdən birinə çevrilib. Azərbaycan mətbuatı qloballaşan dünyada dəyərlərimizi, milli maraqlarımızın və mənafelərimizin qorunmasında daha məsuliyyətlidir. Azərbaycanın 44 günlük Vətən müharibəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolunu önəmlidir. Ən qaynar nöqtələrdə biz mətbuat işçilərinin səsini eşitdik. Düzgün və qərəzsiz informasiyaları dünyaya yaymış oldular. Erməni terroru, təcavüzkar siyasəti qələmə alındı, reportajlar yayımlandı. Peşəkar mətbuat öz sözünü demiş oldu. Erməni lobbisinin Azərbaycana qarşı qərəzli fəaliyyətdə olduğu bir zamanda, Azərbaycan həqiqətləri olduğu kimi dünyaya çatdırıldı, erməni terrorizmi faktlar əsasında ifşa olundu. Anti-Azərbaycan kampaniyasına qarşı mübarizədə bütün güc və iradələr birləşdi, mətbuatımız öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirdi.

Bu gün də ölkəmizin ictimai-siyasi həyatında baş verən istənilən bir hadisənin işıqlandırılmasında mətbuat işçiləri açıq sayıqdır.

***Zümrüd BAYRAMOVA***

# Heydər Əliyev Azərbaycan Dövlətinin xilaskarı və qurucusudur

*Heydər Əliyev: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*



**Nazim İsmayılov**
**Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü**

**Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev tarixin yetirdiyi ən böyük şəxsiyyətlərdəndir. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" - deyən ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləmişdir. Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi klassik və müasir mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və siyasi fəaliyyəti boyu bu prinsiplərə istinad etməsi bu qüdrətli şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə yeganə doğru qərar qəbul etmək bacarığını şərtləndirən amillərdəndir.**

Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergi idi. Bütün bunlar bir keyfiyyət altında birləşirdi: Heydər Əliyev BÖYÜK AZƏRBAYCANLI İDİ. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi idi.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan və tükənməz fitri istedad sahibi Heydər Əliyev doğma xalqının dərdlərinə dərindən bələd olan, hələ çox gənc ikən məkrli qonşuların min bir hiyləsini öz gözləri ilə görən, mükəmməl təhsil almış, o cümlədən tarixi biliklərə dərindən yiyələnmiş, son dərəcə geniş dünyagörüşünə və konkret biliklərə malik olan, doğma xalqını və yurdunu hədsiz məhəbbətlə sevən təkrarsız tarixi şəxsiyyət idi. O, yarım əsrdən artıq zəngin idarəçilik təcrübəsinə malik olan, müxtəlif xarakterli və səviyyəli idarəçilik sistemlərinin bütün incəliklərini bilən, sovet məkanında kiçik bir xalqın oğlu olmasına baxmayaraq, dünyanın altıda birini əhatə edən SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan, Qorbaçovun təqib və hiylələrindən sarsılmayıb yenidən böyük siyasətə qayıtmış polad iradəli şəxsiyyət idi. Planetimizin bugünkü siyasətini müəyyənləşdirən dünya liderləri içərisində seçilən-sayılan, hamı tərəfindən qəbul olunan, Azərbaycanı xilas etmək üçün Ulu Tanrının xalqımıza, Vətənimizə bəxş etdiyi ümummilli lider idi!

Görkəmli dövlət xadimi kimi Heydər Əliyevin dəmir iradəsinin parlaq sübutu onun fəaliyyətinin Moskva illəridir. 1982-1987-ci illəri əhatə edən bu dövrdə SSRİ rəhbərliyində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək post tutan Heydər Əliyev velikorus şovinizmi və böyük dövlətçilik psixologiyasının hökmranlıq etdiyi Kreml rejiminə sübut etdi ki, heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir deyildir. Tənəzzülə başlamış nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan Heydər Əliyev az vaxt içərisində bütün SSRİ-də böyük nüfuz qazandı. Həmin dövrdə Heydər Əliyev Siyasi Büroda bütün Sovet dövlətini idarə etməyə və onu düşdüyü çətin vəziyyətdən çıxarmağa qadir olan yeganə dövlət xadimi idi. Odur ki, səriştəsiz və bacarıqsız Kreml rəhbərləri, xüsusilə M.Qorbaçov Heydər Əliyevi özlərinə ciddi rəqib hesab edirdilər. Belə bir şəraitdə Heydər Əliyev sovet rəhbərliyində olarkən doğma Vətənini həmişə diqqət mərkəzində saxlayır, onun inkişafına hər cür qayğı göstərirdi. Xalqımızın böyük oğlu o zaman, həm də, Qarabağı Azərbaycandan qoparıb almağa çalışan erməni millətçilərinin qarşısında qüdrətli maneə, keçilməz sədd idi. Elə buna görə də, hələ Stavropoldan başlayaraq erməni mafiyasının əlində itaətkar alət olan M.Qorbaçov, nəhayət, öz fitnəkar niyyətinə nail ola bildi: xalqımızın dahi oğlu SSRİ-yə rəhbərlikdən uzaqlaşdırıldı. Bu, əslində bütün sovet hakimiyyəti illəri ərzində xalqımıza vurulan ən ağır zərbə idi. Təsadüfi deyil ki, bundan dərhal sonra M.Qorbaçov tərəfindən himayə olunan erməni millətçiləri Qarabağı Azərbaycandan qoparıb almaq üçün fəal mübarizəyə başladılar. Dahi şəxsiyyətimiz bu dövrdə həm Moskvadan, həm də Azərbaycandakı dönüklərdən vurulan ağır zərbələrə məruz qaldı.

Moskvaya satılmış xəyanətkar rəhbərlər və onları əvəz edən, heç bir idarəçilik bacarığı olmayan "Azərbaycan Xalq Cəbhəsi-müsavat rejimi" məmləkəti dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular. Bu zaman Vətənin ümid çırağı, əliyalın xalqın yeganə qələbə silahı Heydər Əliyev zəkası idi. Bu dövrdə — 1990-cı il yanvarın 21-də (20 Yanvar qırğınının ertəsi günü!) həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının qurtuluş mübarizəsinin önünə keçdi. Dahi siyasətçi xalqının ağır günündə Kremlin təqiblərindən yaxa qurtarıb 1990-cı il iyulun 20-də Vətənə döndü. Lakin Vətəndə - onun paytaxtı Bakıda tariximizin ən rüsvayçı hadisələrindən biri baş verdi: xalqın xilaskar oğluna vaxtilə onun qurub-yaratdığı paytaxtda qalmaq, ağır fəlakət anında doğma xalqı ilə birlikdə olmaq, ona yol göstərmək imkanı verilmədi. Böyük dövlət xadimi Bakıya gəlişindən iki gün sonra — 1990-cı il iyulun 22-də doğma Naxçıvana pənah aparmalı oldu. Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı.

Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsə-bəhs, vaxtı ilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət xadimimiz Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, ölkəmiz ele çıxılmaz vəziyyətə düçar olardımı?

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması, nəhayət, böyük Vətəndən — Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də çox çətin hərbi-iqtisadi blokada vəziyyətində vətən torpağının düşməndən qorunub saxlanması — bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda mühasirə şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

## Bəs Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmadığı həmin dövrdə böyük Vətəndə — Azərbaycanda nələr baş verdi?

Sərt tarixi həqiqət belədir: 1993-cü ilin iyununda — Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst qüvvələr sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına qənim kəsilmişdi. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq dövlət yox idi. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Ulularımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, tarixi düşmənlərimizin qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında — Navahı kəndində vətəndaş müharibəsinin ilk gülləri atılmış, qardaş qanı axıdılmışdı...

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı — dünyanın bu böyük siyasət adamı xalqın təkidli tələbi ilə hakimiyyətə gətirildi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Məhz o zaman — 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan götürmək planı puça çıxdı. Beləliklə, vətənimiz məkrli düşmənlərin hazırladığı uçuruma yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Və ya 1993-cü ilin 15 İyun gününü nə üçün Qurtuluş günü adlandırmaq olar?! Görülən işlərin hamısını sadalamaq mümkün olmasa da, gəlin, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzək. Prezident Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu dahi şəxsiyyət torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Qurtuluş deməkdi.

Azərbaycan dövlətçiliyi və prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qəsdləri zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, Vətənin müstəqilliyi, xalqın azadlığı naminə şəhid olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. Sabitlik və əmin-amanlıq yarandı.

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Real vəziyyətdən çıxış edərək atəşkəs reciminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı - genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi deməkdir...

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq - Qərb dəhlizini açdı. Böyük İpək Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya siyasətçiləri bunu yüksək qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başlamışlar. Cəsarətlə demək olar ki, 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda — "Gülüstan" sarayında keçirilmiş beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində, onun iqtisadi-mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bir sözlə, zəmanəmizin qüdrətli siyasətçisi Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib bu günlərə çatdırdı!

Ümummilli Lider həm də Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət - Heydər Əliyev dövlətçilik məktəbini yaratdı. Ulu Öndərin 2003-cü ildə tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Zaman Heydər Əliyevin bu inamını təsdiq edir və Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, öz müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Ulu Öndərin əsas arzularından biri də məhz düşmən tapdağında olan ərazilərimizin işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Ömrünü xalqına həsr edən dahi şəxsiyyətin bu arzusu isə üç il öncə Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfərlə gerçəkləşdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edərək ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdi.

Bütün bu möhtəşəm uğurlar isə məhz ulu öndər Heydər Əliyevin siyasi kursu və amalları əsasında həyata keçirilmiş düşünülmüş siyasətin nəticəsində qazanılmışdır. Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolundadır, həyatımızın bütün sahələrində yüksəliş, tərəqqi var. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətə alternativ görmür. Tam əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir, Azərbaycan xalqının daha böyük qələbələrə aparır. Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş Ümummilli Liderimizin ideyaları daim yaşayacaq. Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq.

# Dünyanın soyuqqanlıqla müşahidə etdiyi MİNA TERRORU




***Bütün dünyanın gözü önündə Ermənistanın mina terroru davam edir və hələ də beynəlxalq təşkilatlar bu terrora qarşı ciddi tədbir görmək niyyətində görünmürlər. İnsan haqlarından, hüquq və azadlıqlardan dəm vuran təşkilatlar insanların bir-birinin ardınca mina qurbanına çevrilməsini soyuqqanlıqla müşahidə edir, amma mina terrorunun qarşısını alacaq addımlar atmaq haqqında düşünmürlər. Bunun əvəzinə Ermənistan tərəfinin guya blokada şəraitində yaşadıqları barədə qara-qışqırıq salmalarına dərhal reaksiya verənlər tapılır, halbuki, heç bir blokadadan söhbət gedə bilməz və Azərbaycan suveren hüquqları çərçivəsində öz ərazi bütövlüyünü qorumaq, ərazisinə kənar müdaxilələrin qarşısını almaq üçün lazımi, qanuni addımlar atır.***

Ermənistanın törətməkdə olduğu mina terroru qurbanlarının sayı durmadan artır və dinc Azərbaycan vətəndaşlarının ölümü ilə nəticələnən mina terroru hələ də davam edir. Azərbaycanın Tərtər rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində tank əleyhinə minanın partlaması nəticəsində "RPS Energy Ltd" şirkətinin əməkdaşları Səxavət Gözəlov, Nadir Yusifov və Fərid Sədiyev həlak olublar. Üç Azərbaycan vətəndaşının mina qurbanına çevrildiyi bu hadisənin sonuncu olacağına kimsə zəmanət verə bilməz. Hətta bundan sonra daha neçə-neçə qurbanların olacağını təkzib etmək də mümkün deyil. Yaxşı, bəs belə olan halda, insanların guya halına acıyan dünyanın həmin o humanitar təşkilatları nə düşünürlər? Guya ekofəalların aksiyasına görə Xankəndində bir gün şəkər tozu tapmayan erməni əsillinin halına yanan humanitar təşkilatlar üç insanın həyatını itirdiyinə görə heçmi narahat deyillər? Azərbaycan ərazilərində məskunlaşan ermənilərin guya Laçın yolunda qurulan sərhəd-buraxılış məntəqəsinə görə ərzaq çatışmazlığı ilə qarşılaşacaqlarını həyəcan təbili kimi çalan qurumlar bir-birinin ardınca mina terrorunun qurbanı olan və hələ bundan sonra da davam edəcək bu terrora görə heçmi düşünmək istəmirlər? Budurmu onların insan azadlıqları və humanizm barədə göstərmək istədikləri?

Bilirik ki, hərbi əməliyyatların dayandırılmasına dair 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyannamənin imzalanmasından elə bu günə qədər Ermənistan silahlı qüvvələrinin yerləşdirdiyi minaların partlaması nəticəsində həm hərbi qulluqçular, həm də mülki şəxslər olmaqla, nə qədər insan tələf olub və nə qədər də insan xəsarət alıb, şikəst olub. Ermənistanın mina terroru nəticəsində həlak olanlar arasında azərbaycanlı televiziya operatoru Sirac Abbasov və müxbir Məhərrəm İbrahimov da var və bu fakt hələ də müşahidəçi mövedə olan beynəlxalq təşkilatların susqunluğuna artıq son qoymalı idi. Amma hələ də özünü humanitar təşkilat kimi göstərənlər dillənmirlər və hələ də bu susqunluqlarından sui istifadə olunur. Bir-birinin ardınca basdırılan minalar can almaqda davam etsə də bunu nüfuzlu beynəlxalq təşkilatlar sadəcə, seyr edirlər. Müharibə bitdikdən, Üçtərəfli Bəyanat imzalandıqdan sonrakı dövrdə də Ermənistanın beynəlxalq hüquq normalarına məhəl qoymaması, mina terroru ilə insan tələfatına rəvac verməsi elə bil beynəlxalq təşkilatlar, humanitar qurumlar üçün adi hala çevrilib. Əks halda həmin təşkilatların bir sanksiyasına, bir bəyanatına, bir ciddi təpkisinə rast gələrdik.

Müharibənin məhz mina terroru ilə Ermənistan tərəfindən davam etdirildiyini heçmi anlamaq istəmir bu beynəlxalq təşkilatlar? Dərk etmək istəmirlərmi ki, ermənilər bu üsulla həm Azərbaycan vətəndaşlarının qətlinə, həlak olmasına şərait yaradırlar, həm də işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin aparılmasına, məcburi köçkünlərin öz evlərinə qayıtmasına əngəl törədirlər? Bir sözlə, Ermənistan münaqişənin davam etməsi üçün əlindən gələni əsirgəmir və bunun üçün beynəlxalq normaları, beynəlxalq hüququn norma və prinsplərini çəkinmədən ayaqlar altına atır. Həmin o insan haqlarından, beynəlxalq hüquqdan dəm vuran təşkilatlar da buna səssiz-səmirsiz tamaşa edirlər, sanki ya bu belə də olmalı imiş, ya da ermənilər üçün bu adi hal imiş.

Vaxtaşırı olaraq Üçtərəfli Bəyanatın guya hansısa bəndini Azərbaycanın pozduğunu yalandan iddia edən ermənilərin ağzına baxan və onların yalanlarına uyan təşkilatlar, ayrı-ayrı siyasilər Ermənistanın bu terrorunu görmürlər, yoxsa görməməzliyə vururlar? Əlbəttə ki, görməməzliyə vururlar, çünki bu qədər müddət ərzində ermənilərin basdırdıqları minaların partlaması nəticəsində həlak olan insanlar barədə məlumatsız olmaq mümkün deyil. Yaxşı, bəs nəyi gözləyirlər? Ermənistan tərəfi nə mina xəritələrini vermədiyinə görə, nə də ərazilərimizə müharibə bitdikdən sonrakı müddət ərzində mina daşıyıb basdırdığına görə bircə dəfə "məzəmmət" edilmədisə, bu zaman hansısa humanizmdən söhbət gedə bilməz axı.

Üçtərəfli Bəyanat imzalandıqdan sonra işğaldan azad edilən ərazilərimizdə yerləşdirilən sülhməramlılar separatçı rejimin həmin ərazilərə silah-sursat, hərbi texnika, canlı qüvvə və mina daşımalarına ən azından göz yumdu, şərait yaratdı və zərərsizləşdirilən minaların bəzilərinin istehsal tarixinin 2021-ci il olması təsdiq edir ki, həmin minalar müharibə bitdikdən sonra gətirilib, basdırılıb. Deməli, buna onlar tərəfindən şərait yaradılıb. Mina xəritələrinin verilməsinə, onların zərərsizləşdirilməsinə kömək etmək əvəzinə, yenilərinin də gətirilməsinə, basdırılmasına onlar tərəfindən imkan verilib. Buna görə də Azərbaycan öz suveren hüquqları çərçivəsində Laçında sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bu qanunsuz əməllərə son qoyur və görünür, bu da kimlərisə narahat edir. Rəsmi Bakının nə etməyini gözləyirdilər, silah-sursatın, hərbi texnikanın və nəhayət minaların Azərbaycan ərazilərinə daşınmasına tamaşa etməsini və buna razılaşmasınımı məqbul hesab edirdilər? Əslində, bütün dünyanın humanitar təşkilatları, beynəlxalq qurumları mina xəritələrinin Azərbaycana verilməsini Ermənistandan tələb etməli idilər. Lakin biz bunu müşahidə etmədik, bunun şahidi olmadıq. Şahidi olduğumuz o oldu ki, həmin minaların basdırılması səbəbindən Azərbaycan vətəndaşları tələf olmaqda, həlak olmaqda, sağlamlığını itirməkdə davam edir və bütün dünya da bunu soyuqqanlıqla müşahidə edir.

İşğaldan azad etdiyimiz ərazilərdə minatəmizləmə işləri aparılır və bu işlərə külli miqdarda vəsait də xərclənir. Məsələn, 2021-ci ildə məhz minatəmizləmə işləri üçün 98 milyon manata yaxın vəsait sərf olunub. Bu barədə ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev də vurğulayıb və Qarabağın işğaldan azad edilmiş ərazilərində minatəmizləmə əməliyyatlarının həyata keçirilməsi üçün dövlət büdcəsindən böyük maliyyə vəsaitlərinin ayrıldığını qeyd edib. Bu işlərin görülməsi də dünyanın diqqətindən yayınıb, yoxsa bunu da görməməzliyə vurmaq fikrindədirlər? Axı işğaldan azad edilən ərazilərimizdə davamlı olaraq minatəmizləmə işləri aparılır və bir-birinin ardınca mina terrorunun qurbanları da olur. Bunları görməmək, barəsində bilməmək mümkün deyil. Laçında sərhəd-buraxılış məntəqəsi qurulan kimi dərhal bu barədə xəbər tutan və buna etiraz etməyə üzündə üz tapanlar isə bu mina terrorundan xəbərsiz heç ola bilməzlər axı. O zaman bu susqunluğu necə başa düşək? Davam edən mina terroruna qarşı susqunluq çoxmu davam edəcək? Bəlkə mina xəritələrinin Azərbaycana verilməsi və mina terroruna son qoyulması barədə bir dəfə də olsa Ermənistana xəbərdarlıq edildiyini eşidənbilən olub? Eyni şəkildə Azərbaycan tərəfi Xankəndi ərazisində hansısa yolla mina basdırsaydı buna dünyanın nüfuzlu beynəlxalq təşkilatları susmazdılar axı.

Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyi 2021-ci ilin noyabr ayından 2022-ci ilin mart ayına kimi 10 600 piyada əleyhinə və 4 685 tank əleyhinə mina, 14 045 partlamamış hərbi sursat aşkar edərək zərərsizləşdirib. Eyni zamanda, 2022-ci ildə Azərbaycan istehkamçıları 12 913 mina zərərsizləşdirib və nəticədə 41 915 hektar ərazi minalardan təmizlənib. Bu rəqəmlər heç də nəzərə çarpmayacaq, gözdən yayınacaq rəqəmlər deyil və buna göz yummaq sadəcə olaraq, mina terroruna soyuqqanlıqla tamaşa etmək deməkdir. Ərazilərin minalardan təmizlənməsi illərlə davam etdiyi halda, nə Ermənistan tərəfi basdırdığı həmin minaların xəritələrini vermir, nə də bu xəritələri beynəlxalq təşkilatlar ermənilərdən tələb etmir. Nəticədə də Azərbaycan vətəndaşları Ermənistanın mina terrorunun qurbanına çevrilirlər, amma yenə də susqunluq davam edir, yenə də soyuqqanlıqla yanaşılır. Sonra da humanitar təşkilatlar ağız dolusu danışmaqdan çəkinmirlər, beynəlxalq təşkilatlar da insan azadlıqları barədə səs salmaqdan utanmırlar.

Ötən ilin, 2022-ci ilin oktyabrında Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin altıncı Zirvə Toplantısının plenar iclasında çıxış edən cənab Prezident İlham Əliyev Azərbaycanın dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu da bəyan etmişdi. "İlkin hesablamalara görə, işğal zamanı Ermənistan Azərbaycan ərazisində bir milyondan çox mina quraşdırıb. Beynəlxalq ekspertlərin fikrincə, ərazilərin minalardan təmizlənməsi məsələsinin həlli üçün Azərbaycana təxminən 30 il və 25 milyard dollar lazımdır", deyə bəyan edən ölkə rəhbəri bütün dünyanın diqqətinə çatdırmışdı ki, xüsusilə minalanmış sahələrin dəqiq xəritələrinin olmadığı şəraitdə işğaldan azad etdiyimiz ərazilərin təmizlənməsi mürəkkəb prosesdir. Bəs bu mürəkkəb prosesə bircə dənə beynəlxalq təşkilat yardımçı oldumu ki, həmin o mürəkkəblik aradan qaldırılsın? Minalardan ərazilərimizin təmizlənməsi üçün 30 il vaxt, eləcə də 25 milyard dollar lazım olduğunu eşidənlər, həmin müddətin mümkün qədər qısaldılması üçün, yaxud qeyd olunan vəsaitə kömək etmək məqsədi ilə bircə dənə addım atdımı? Atmadı. Deməli, belə çıxır ki, mina terrorunun qurbanlarını bütün dünya hələ düz 30 il müddətində soyuqqanlıqla seyr etmək fikrindədir və nə bu müddətin qısaldılması üçün səy göstərmək niyyəti yoxdur, nə də minalardan ərazilərin təmizlənməsi üçün vəsait ayırmaq. Bir sözlə, mina terroru davam edir, dünya da bunu soyuqqanlıqla müşahidə edir, buna isə nə humanizm adı vermək mümkün deyil, nə də insan haqlarının müdafiəsi.

***İnam Hacıyev***

# Yeni dəyişikliklər NƏLƏRƏ SƏBƏB OLACAQ?






"Ailə Məcəlləsinə dəyişikliklər prezident Fərmanında qeyd olunan himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqinə hesablanıb." Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.Onun sözlərinə görə, dəyişikliklər valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrə yerləşdirilməsi, həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbul edilməsi, onların ailələrinə qaytarılması, eləcə də müəssisələrə düşmələrinin qarşısının alınmasına dair tədbirlər görülməsini də əhatə edir: "Bu dəyişikliklər müəssisələrdə olan uşaqlarla əlaqədar fərdi inkişaf planlarının hazırlanması məsələləri ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi tapşırıqlarından irəli gəlir.Ailə Məcəlləsinə təklif olunan dəyişikliklər himayədar ailə institutunun tətbiqi, habelə valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisəyə yerləşdirmə prosesinin təkmilləşdirilməsi, onların müəssisələrə düşməsinin qarşısının alınması, bioloji ailələrinə qaytarılması məsələlərinin hüquqi tənzimlənməsini özündə ehtiva edir: "Qeyd etmək lazımdır ki, "Himayədar ailə" institutu beynəlxalq təcrübədə uşaq qayğı sisteminin ən geniş yayılmış növlərindən biridir. Bu model uşaqların dövlət müəssisələrində yaşamasının alternativ variantı kimi çıxış edərək, onların ailə mühitində yaşamalarına şərait yaradır. Layihədə himayədar ailənin yaranması ilə əlaqədar proseslər, himayədar ailənin öhdəlikləri, uşağın himayədar ailəyə verildikdən sonra aydan bir dəfədən az olmayaraq planlı və plandankənar monitorinqin aparılması, himayədar ailəyə verilən zaman müəyyən yaşa çatmış uşaqların razılığının alınması qeyd olunur. Bu dəyişikliklər himayədar ailə institutunun uğurlu tətbiqinə, nəticədə ənənəvi uşaq müəssisələrindən fərqli olaraq həmin uşaqların inkişafına və cəmiyyətə inteqrasiya imkanlarına malik olmasına müsbət təsir göstərəcək".Deputat sözlərinə davam edərək bildirib ki, bundan başqa, layihədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) valideyn himayəsindən məhrum olan uşaqların sosial xidmət müəssisələrinə yerləşdirməzdən öncə ilkin qiymətləndirilmənin aparılması və bu qiymətləndirilmədən asılı olaraq qərarın qəbul edilməsi, zərurət olduqda fərdi inkişaf və ailə inkişaf planının hazırlanmasının, uşağın yerləşdirilməsi zamanı onun fikirlərinin, maraqlarının, etnik mənşəyinin, müəyyən dinə və mədəniyyətə mənsubiyyətinin, ana dilinin, təhsili və tərbiyəsi üçün daha əlverişli imkanların, yerləşdirilmənin uşaq üçün təhlükəsizliyinin nəzərə alınması da qeyd olunur: "Bu da uşaqların ailə mühitində qalmasına daha çox üstünlük verilməsindən və uşaqların inkişafına göstərilən qayğıdan irəli gəlir: "Beləliklə, təklif olunan dəyişikliklərin qəbulu valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələşməsinin qarşısının alınmasına, bununla da həmin uşaqların ailə mühitində tərbiyə alma imkanlarının genişləndirilməsinə xidmət edəcək".



***Ləman Əlizadə***

# "Vaşinqton danışıqları nəticə verə bilər"

***"Əslində, rəsmi Vaşinqtonun Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünü keçirməkdə məqsədi bəllidir". Bu sözləri "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.***



E.Manafov qeyd edib ki, bu görüşdən əvvəl ABŞ-ın dövlət katibi Entoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi olmuşdu və Birləşmiş Ştatlar münaqişə tərəfləri arasında sülh müqaviləsinin imzalanması üçün Vaşinqton layihəsini irəli sürmüşdü: "Layihənin və təkliflərin irəli sürülməsində məqsəd bölgədə ABŞ-ın təsir imkanlarını gücləndirmək və Rusiyasız problemi həll etməklə Moskvanın münaqişə tərəflərinə olan təsir imkanlarının azalması ilə bağlı illüziyaları yaratmaqdan ibarətdir".

Politoloq onu da qeyd etdi ki, Rusiya sülhməramlı qüvvələr adı altında regiona özünün hərbi kontingentini yeridib: "Bu hərbi kontingent isə çox ciddi faktordur. Rusiya faktorunu nəzərə almadan tərəflərin Vaşinqtonun təklif etdiyi müstəvi üzərində ortaq məxrəcə gəlməsi bir qədər ciddi təsir bağışlamır. Üstəlik, bölgədə Rusiya və İranın da üst-üstə düşən maraqları nəzərə alınarsa, bu, onu göstərir ki, Vaşinqtonun bu sahədəki təklifləri, əslində, daha çox Türkiyədəki seçkilərin doğura biləcəyi reallıqlardan kənarda problemi həll etmək istəyindən irəli gəlir. Vaşinqton çox çalışacaq ki, Türkiyədəki seçkiləri Kemal Kılıçdaroğlu qazansın:"Bu halda Türkiyənin Ermənistanla münasibətlərində ciddi dəyişikliklərin ola biləcəyi istisna deyil. Hətta Türkiyənin Ermənistanla sərhədləri aça biləcəyi ilə bağlı da mülahizələr var. Nə qədər ki Ərdoğan iqtidardadır, aydın məsələdir ki, bu layihə gerçəkləşməyəcək".

E.Manafov onu da bildirdi ki, Türkiyə Birləşmiş Ştatların NATO üzrə müttəfiqi olsa da, Ərdoğanın iqtidarı dövründə Qərb və Türkiyə arasındakı münasibətlərdə kifayət qədər problemlər yaranıb: "Ona görə də Vaşinqton bu seytnota düşməmək üçün hazırda problemi həll etmək barəsində səylərini gücləndirib. Lakin Rusiyanın bölgədəki hərbi mövcudluğu münaqişə tərəflərinin Kremli nəzərə almaq məcburiyyətində qoyur. Yəni Rusiyasız Birləşmiş Ştatların problemi həll etmək üçün göstərdiyi cəhdlərin ciddi səmərə verəcəyini hələ ki, proqnozlaşdırmıram".

***GÜLYANƏ***



Elçin Bayramlı

# Söz və mətbuat azadlığı: varmı, yoxmu?

*"Media cəmiyyətlə hadisələr arasında elə qoyulmuş güzgüdür ki, insanlar bu güzgüyə baxaraq bütün hadisələri olduğu kimi görür"- Pol Stenli*

Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da söz və mətbuat azadlığı daim müzakirə obyektidir. Media ictimai rəyə ciddi təsir edən, dövlət siyasətini ictimai müzakirəyə çıxaran, cəmiyyəti informasiya ilə təmin edən, maarifləmməyə xidmət göstərən əsas ictimai institut olduğundan, bu müzakirələri vacib saymaq olar. Mətbuatının fəaliyyətini analiz edərkən məsələyə 2 kontekstdən yanaşmaq olar - söz və mətbuat azadlığı sərt çərçivələr daxilində və ya ultra-azadlıq kimi. Nəzəri və praktiki cəhətdən hər iki aspektdən yanaşmada problemlərin olduğu sirr deyil.

Birinci halda- media və söz azadlığına çərçivə qoyulduqda dövlət məmurları və başqaları bundan sui-istifadə edir, jurnalistlərə təzyiq göstərir, cəmiyyətə çatdırılması vacib olan informasiyaları ustalıqla gizlədə bilirlər.

İkinci halda- ifrat-azadlıq şəraitində də başqa problemlər yaranır. Bu zaman jurnalistlər vəziyyətdən sui-istifadə edə, cəzasızlıq sindromunun yaratdığı imkanlardan şəxsi və korporativ maraqlar üçün yararlana bilirlər. Bunları nəzərə aldıqda qətiyyətlə demək mümkündür ki, mediada ultra-azadlıq nə cəmiyyət üçün, nə də peşəkar jurnalistlər üçün optimal yol deyil.

Hər məsələdə "qızıl orta" deyilən bir praktika var ki, o, bütün hallarda öz müsbət təsirini göstərir. Azərbaycanda mətbuat azadlığı sahəsində üçüncü yolun seçilməsi vacib idi. Buna görə də, dövlətin dünya təcrübəsi ilə milli ənənələri uzlaşdıraraq hər 3 tərəfi (cəmiyyət, dövlət və media) qane edəcək optimal tənzimlənmə mexanizmi yaratma cəhdi təqdirəlayiqdir.

Əlbəttə, Azərbaycanda mətbu orqan təsis etməkdə məhdudiyyətlərin götürülməsi, internet medianın sürətli inkişafı müsbət tendensiyalardandır. Lakin bu prosesin mənfi tərəfləri də var. Yəni, kəmiyyət cəhətdən inkişaf var, keyfiyyət tərəfdən isə yox. Yaranmış vəziyyəti analiz etsək, görərik ki, ölkədə mətbuat azadlığından sui-istifadə halları getdikcə artır. Bu faktlar media qanunvericiliyi və ictimai qınaq kontekstindən nəzərdən keçirildikdə ortaya belə bir mənzərə çıxır- İfrat mətbuat azadlığı anarxiyaya və özbaşınalığa, insan hüquqlarının və qanunların pozulmasına, milli və dövlət maraqlarının zərbə altına qoyulmasına gətirib çıxarır.

Bir çox mətbuat orqanları, jurnalistlər həm qanunvericiliyin tələblərini, həm etik kodeksləri, həm də vicdani kriteriyaları arxa plana keçirirlər. Bu isə bütövlükdə mətbuatı, jurnalistləri cəmiyyətin gözündən salır, ona inamı azaldır.

Problem ondadır ki, bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanda bəzi şəxslər plüralizmi, söz azadlığını özbaşınalıq, şantaj, hədə-qorxu və böhtan üsullarından istifadə edib rüşvət almaq, xoşu gəlmədiyi şəxsin şərəfləyaqətini tapdalamaq və ya insanları təhqir etmək azadlığı kimi qavrayır.

Jurnalist olaraq bizim əsas vəzifəmiz isə, cəmiyyətdə gedən prosesləri dolğun və düzgün təqdim etməkdir. Bunu etməyənləri, edə bilməyənləri, jurnalist kimi qəbul etməməli, onlara qarşı ilk növbədə özümüz mübarizə aparmalıyıq. Cəmiyyətə izah edilməlidir ki, sosial şəbəkələrdə xəbər yayan profil, səhifə və kanallar media deyil, bu platformaların sahibləri jurnalist deyillər.

Azərbaycanda söz azadlığı, plüralizm üçün lazimi var, kimin bundan necə istifadə etməsi isə, cəmiyyətin, fərdlərin problemidir. Hesab edirəm ki, mətbuat, TV, radio, internet saytlar üzərində ictimai və dövlət nəzarəti gücləndirilməlidir. Yaxın 30 ilin təcrübəsi göstərdi ki, belə olmayanda özbaşınalıq baş alıb gedir. Cəza mexanizmi, ictimai qınaq olmadıqda, ortada ciddi mətbuat olmur. Azərbaycan KİV-ləri də bu mərhələni keçməlidir. Əks halda, cəmiyyətin inamını tamam itirəcək, ənənəvi mətbuat sosial şəbəkələr tərəfindən sıradan çıxarılacaq. Ümidvaram ki, buna imkan verilməz.

Dünya şöhrətli jurnalist Pol Stenlinin medianın təyinatı haqda məşhur tərifi var- "Media cəmiyyətlə hadisələr arasında elə qoyulmuş güzgüdür ki, insanlar ora baxaraq bütün hadisələri olduğu kimi görür".

Azərbaycana məhz belə media lazımdır. 3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü münasibətilə bütün həqiqi jurnalistləri təbrik edirəm.

# İranın Yaxın Şərqdə “AT OYNATMAQ PLANI”

***Silah-sursat axınına İranın son zamanlar maraqlı olması bir sıra məqamlara aydınlıq gətirən sullar doğurur. Rusiyaya silah axınını artıqmaqla İran nəyi planlaşdırır və bu ölkə hansı məqsədlər üçün plan qurur? Məsələ burasındadır ki, İranın belə silah-sursat axınına meyilli olması uzunmüddətli perspektiv baxımından regionda gərginliyin artmasına gətirib çıxara bilər. Amma görünür rəsmi Tehranı bu məsələ, yəni gərginliyin artacağı heç düşündürmür də. Elə isə molla rejimini düşündürən, maraqlandıran nədir və hansı plan qurula bilər?***



İranın Rusiyanı silah-sursatla, kamikadze dronlarla təchiz etdiyini göstərən bəzi rəqəmləri dünyaca məşhur olan, çox nüfuzlu “Wall Street Journal” nəşri açıqlayıb. Nəşrin açıqlamalarına görə, son altı ay ərzində İran yük gəmiləri ilə Rusiyaya 300 mindən çox artilleriya mərmisi daşıyıb. Eləcə də bir milyondan artıq patron daşındığı da qeyd olunur. Bir sözlə, İranın silah-sursat axınında maraqlı olduğu, Rusiyaya silah daşıdığı barədə qeyd olunanlar heç də şayə deyil, artıq bütün dünyanın belə diqqətindən yayınmayan dəqiq məlumatlardır. Özü də bu məlumatların çox həssas bir məqamda, regionda təhlükəsizliyin, sülhün təminatına çalışıldığı bir zamanda açıq-aşkar şəkildə ortaya çıxması da təsadüfi deyil və təsdiq edir ki, İran bundan heç narahat da deyil, bunu gizlətmək də niyyətində olmayıb. Amma məsələ burasındadır ki, İran narahat olmasa da belə, bu rəqəmlər heç də nəzərdən qacaçaq statistik rəqəmlər deyil və narahatlıq üçün kifayət qədər əsas yaradır.

Çox maraqlıdır ki, Ukrayna ilə müharibə fonunda İran Rusiyaya silah axınını niyə həyata keçirur, müharibəni daha da qızışdırmaq üçünmü? Bəlkə rəsmi Tehran Ukraynada insan tələfatında maraqlıdır? Yaxud, Ukraynanın şəhərlərinin, yaşayış məntəqələrinin dağıdılması İrana hansısa mənada lazımdır? Hər halda bu sadalananların heç biri inandırıcı görnmür. Ona görə yox ki, İran insan tələfatına, dağıntılara qarşıdır. Xeyr, bu belə deyil və biz bunun əksini torpaqlarımız ötən əsrin sonlarında işğal olunanda da, ərazilərimiz 30 il işğal altında saxlanılanda da, 44 günlük müharibə dövründə də, eləcə də müharibədən sonrakı dövrdə də müşahidə etdik. Müşahidə etdik ki, İran tərəfi işğalçı ölkəni silah-sursatla təmin etməklə, separatçıları ruhlandırmaqla, işğala, təcavüzə, insan tələfatına rəvac verdiyinə görə heç peşiman da olmadı. Amma Rusiyaya silah axını məsələsində İranın heç də belə qeyri-humanist addımı deyil, tamamilə başqa niyyətlərinin olduğu ortaya çıxır. Hər bir halda, İranın öz yaxın ətrafında baş verənlərə həssas yanaşdığı inandırıcı görünür və bəlli olur ki, bu ölkənin məhz Yaxın Şərqdə hansısa planları var.

Doğrudur, İran indi Rusiyaya silah axınını həyata keçirməklə ruslara dəstək olmuş olur və bunu rəsmi Moskva da belə qəbul edir. Amma onu da qəbul edir ki, İran bunu səbəbsiz yerə, əvəzsiz etmir və Rusiyadan qarşılığını gözləyir. Məsələn, İranın Rusiyadan “Su-35” qırıcı təyyarələrini almaq niyyəti artıq bəllidir. Deməli, İran Rusiyanın Ukrayna ilə müharibəsi fonunda ruslara etdiyi yardım müqabilində Moskvadan adekvat addımların atılmasını gözləyir. Bir sözlə, İranın da öz növbəsində Rusiyadan alacaqları silahlarla bağlı planları var. Bu planlar isə sözsüz ki, Yaxın Şərqlə, regionla bağlıdır və görünür İran da bölgədə özünə yer tutmaq üçün rusların köməyini gözləyir, amma bütün bunlar olduqca təhlükəlidir və sabitliyə, sülhə böyük təhdid hesab olunur. Daha dəqiq desək, İran həmişə olduğu kimi, yenə də təhlükəli oyunlar oynayır və bunun üçün Moskvanın köməyinə də bu məqamda ehtiyac duyur.

Rəsmi Tehran çoxdandır ki, Cənubi Qafqazda Azərbaycanın və Türkiyənin ziddinə olan platformalarda çıxış etmək, hətta həlledici paya sahib olmaq niyyətindədir və bunun üçün də hər şeyə hazırdır. Hətta, bunun üçün Rusiyanın yardımına ehtiyac duyduğunu da gizlətmir. Əgər İran Rusiyaya silah axınını açıq-aşkar şəkildə həyata keçirirsə, deməli, bunu bilərəkdən nümayişkəranə şəkildə edir. Görünür, rusların da nümayişkəranə şəkildə adekvat addımlar atacağını gözləyir. Amma bərk yanılır, çünki bölgədə mövqeyini möhkəmləndirmək, “at oynatmaq” istəyən İrana Kreml qətiyyən kömək etmək niyyətində ola bilməz. Elə məhz Yaxın Şərqdə, Cənubi Qafqazda mövqeyini möhkəmləndirmək uğrunda güclü rəqabət hələ də davam edir və Rusiya bu fonda İrana heç bir halda dəstək verməz. Çox güman ki, rəsmi Tehran bunu da yaxşı başa düşür və nəzərə alır, lakin yenə də rusların ətəyindən bərk yapışıb. Sözsüz ki, bu da səbəbsiz deyil və İranın yenə də hansısa başqa planları olmaya bilməz.

Sirr deyil ki, Yaxın Şərq regionunda, xüsusilə də Suriyada Türkiyəni, İsraili sıxışdırmaqdan ötrü İran əldən-ayaqdan gedir. Bu niyyətinə Rusiyanı qatmaq istəməsi də təkzib edilə bilməz. Bir sözlə, rəsmi Tehran Moskva ilə ikibaşlı oyun oynayır. Hətta, bu, nəinki ikibaşlı oyun kimi görünür, eyni zamanda goesiyasi baxımdan belə müxtəlif istiqamətdə çirkin niyyətlərin olduğu ortaya çıxır. İran bu məqamda ABŞ-ın da mövqeyini nəzərə alır və Rusiya ilə bu ölkənin rəbabətindən istidadə edərək həmin o hegemon ölkəni də Yaxın Şərqdə sıxışdırmağa çalışır. Regionda belə maraqları toqquşan iki ölkənin, ABŞ və Rusiyanın qarşı-qarşıya gəlməsi Tehran üçün ən arzuolunandır və bir tərəfdən də buna çalışıldığı dərhal hiss olunur.

Məqsəd isə bəllidir və İranın Yaxın Şərqdə “at oynatmaq planı” bu ölkənin elə başlıca məqsədi olduğu şübhə doğurmur.

ABŞ heç də İranın siyasəti ilə razılaşa bilmir və Vaşinqton bu vaxta qədər olduğu kimi, bundan sonra da Tehranla münasibətləri yaxşılaşdırmaq niyyətində deyil. Bunun bir çox səbəbləri var və əsas səbəblərdən biri, hətta birincisi İranın nüvə silahına sahib olmaq istəyi və niyyətidir. Sözsüz ki, bu niyyət belə amerikalılar üçün qəbuledilməzdir və İran tərəfi də bunu bilir. Bilir ki, ABŞ İranı nüvə silahına sahib ölkə kimi görmək, onun nazı ilə oynamaq fikrində deyil. Əksinə, buna hər vəchlə mane olduğu və olacağı gün kimi aydındır. Bütün bunların fonunda İran indi Rusiyaya yaxınlaşmaqla, əməkdaşlığa guya can atan kimi özünü göstərməklə, Kremlin dəstəyindən, köməyindən istifadə edərək nüvə silahına sahib olmaq niyyətindədir. Sözsüz ki, Tehranın bu istəyinin, arzusunun reallaşacağı ağlabatan deyil, çünki Rusiya özü də İranın nüvə silahına sahib olmasında maraqlı tərəf deyil. Hələ ki, İranın yaxınlaşmaq niyyətindən Moskva bu məqamda istifadə etmək, yararlanmaq üçün susur və silah axınına görə qarşı tərəfi narazı salmaq istəmir. Bununla belə, Rusiya heç bir halda, nəinki nüvə silahı əldə etməsi üçün İrana kömək etməyəcək, hətta buna bütün gücü ilə mane olacaq, çünki bu ölkələr tarix boyu bir-biri ilə barışmayan, müharibələr aparan, qarşı-qarşıya gələn, mövqeləri toqquşan imperiyaların varisləri hesab olunurlar və Möskva bu fonda Tehrana ancaq mane ola bilər, kömək edə bilməz.

Göründüyü kimi, İran son vaxtlar çox təhlükəli oyunlar oynamaqdan çəkinmir. İslam ölkəsi kimi tanınan İran öz niyyətini reallaşdırmaq üçün, nəinki rəqibi hesab olunan Rusiya ilə, hətta şeytanla da razılığa gəlməyə hazır olduğunu nümayişkəranə şəkildə göstərir. Tarixən düşmən olan ölkə ilə də əməkdaşlığa, iş birliyinə girmək üçün əldən-ayaqdan gedən İranın heç şübhəsiz ki, bir planı var. Heç şübhəsiz ki, bu plan, elə Yaxın Şərqdə “at oynatmaq” planıdır, amma görünən odur ki, İranın özü oynadılır və hələ daha təhlükəli oyunlara da sürüklənə bilər.



**Təhmasib Novruzov**

# Bic doğulan Ermənistanın “ata”sı kimdi?

Ermənistan bic doğulmuş uşaq kimi “ata”sı bilinməyən dövlətdir, yəni bic dövlətdi. Bu, birmənalıdı. Zatən atası məlum olmadan doğulan uşağa “zina” deyirlər. O zaman kimin tərəfindən yaradıldığı məlum olmayan, bir neçəsi tərəfindən “atalıq” iddiası olan bu dövləti “zina dövlət” adlandırmaqda, anadolular demiş, bir sakınca olmaması gərək. Burası aydındı. Amma aydın olmayan orasıdır ki, indi bu “dövlət”in “ata”lıq iddiasında niyə bu qədər dövlət dava salıb! Zatən fərsiz, bacarıqsız, anormal doğulan uşağın üstündə kimsə dava döyməz ki, onun atası mənəm. Ermənistan da fərsiz, rəzil, qonşularla yola getməyən, başı qapazlı, əlindən bir iş gəlmədiyindən özünə arxa-kömək axtaran, dilənərək yaşayan uşağa bənzəyir. Belədə onun dünyaya gəlməsində səbəbkar olan, yəni “Ermənistanın atası” adına iddia etməyə ən çox haqqı olan Rusiyadan daha ziyadə ABŞ, Fransa, İran kimi dövlətlərin atalıq iddiasının kökündə nə dayanır görəsən? Keçmişə atüstü bir nəzər salaq. 1828-də İran, İraq, Türkiyə ərazisindən bu ölkələrə qarşı xislətlərinə uyğun xəyanətlərinə görə qovulan bu bic, vələduzna şeytan cinsinə ruslar atalıq edərək gətirib doldurdular işğal etdikləri Azərbaycan torpaqlarına. O zaman İranda Rusiyanın səfiri olmuş Qriboyedov deyilən birisi yazır ki, buna (yəni hayların Azərbaycan ərazisində yerləşdirilməsinə - T.N.) etiraz edən yerli müsəlman əhalini inandırdıq ki, ermənilər bura müvəqqəti köçürülür, vəziyyət düzələn kimi qayıdacaqlar öz (?) yurdlarına. Guya qaçıb gəldikləri torpaqlar onların “öz” yurduymuş. Beləcə yerləşib qal oğlu qal kimi rusların “atalıq qayğısı” nəticəsində oldular qədim türk torpaqlarının sakinləri. Sonra ruslarla bərabər firənglər də başladılar haylara atalıq eləməyə və haylar da bu atalarının dəstəyini görüb müvəqqəti sakini olduqları bu türk torpaqlarına sahiblənmək fikrinə düşdülər. Firəng ataları Parisdə bunlara daşnak partiyasını yaratdılar və dedilər ki, bizə maşalıq edin, türklərlə vuruşun, biz də sizə arxa-dayaq olacağıq. İki “ata”nın birgə qayğısı ilə 1918-də qədim türk yurdunda bunlara qondarma bir layihə-dövlət də hədiyyə elədilər. Tarix boyu özünün dövləti olmayan, yəni həmişə onun-bunun qapısında sülənərək çörək tapıb yeyən bu bic tayfa, görməyənin xoruldadığı kimi, başladılar xor-xor eləməyə.

Yenə iki atası birdən, xüsusən də ruslar dəstək verib onların xor-xorlarını gerçəkləşdirdilər, yəni doğulanda 9 kilo(oxu: 9000 kvadrat kilometr-T.N.) olan bu bicbalanın “çəki”sini artıra-artıra elədilər 29 kilo (oxu: 29 000 kvadrat kilometr-T.N.). Bicbalalar ərköyün olur, daha bu qədər də yox. Gördülər nə istəsələr “dədələri” verir, bağırdılar ki, Qarabağı da bizə verin. Burda rus dedi ki, daha bəsdir, qudurmayın, hələlik Qarabağa bir status verək, vaxtı gələndə oranı da alıb verərik sizə. Rusların fikrincə nəzərdə tutduqları həmin vaxt 1988-də yetişmişdi. Odur ki, haylara dedilər bir az da xor-xor eliyin, Qarabağı da verək sizə. Bu dəfəki xorultularına qarşı tərəfdən, yəni Azərbaycan türklərindən elə çığırtı gəldi ki, xorultularını qısıb girdilər siçan deşiyinə. Amma bu yerdə yeni atalar peyda oldu. ABŞ da, İran da qalxdılar ayağa ki, Ermənistanı biz əkmişik, atası da bizik. Qəribədi, vallah, bütün digər məsələlərdə düşmən olan ABŞla İran ikisi də Ermənistana atalıq iddiasını qoydular ortaya. Azərbaycanın beynəlxalq aləmdə tanınmış torpaqları işğal olunduğu halda, ABŞ keçmiş sovet respublikalarının azadlığına dəstək aktında 907-ci düzəlişi edib, bizi bu dəstəkdən də məhrum elədi. Düzdü, biz narazı olduq, amma niyə narazı olaq ki, kişilər övladlıq iddiasına qalxdıqları Ermənistana övlad payı verirdilər, bizə nəyə görə verməliydilər? Bu yandan özünü islam ölkəsi adlandıran İran fars-molla rejimi atalıq iddiasında daha da irəli gedərək, Qarabağın brilyant qaşı Şuşanı işğal etmələri üçün övladlarına misli görünməyən dəstək əta elədi. Bu da yetməzmiş kimi, 30 il ərzində Azərbaycanın işğal olunmuş ərazilərini, məscidlər, pirlər qarışıq çapıb-talamaqda,dağıtmaqda hayların ən yaxın köməkçiləri oldular. 44 günlük Vətən savaşında da hay balalarına o biri atalarından daha çox yardım etdilər.

Xülasə, sadaladıqca bu “atalar” ın “övladları”na etdikləri köməyin sayı-hesabı bitib-tükənəsi deyil. Heç məqsədim də bu deyil. Canları cəhənnəmə, özlərini ermənilərin ataları hesab etmirlər? Övladlarına dəstək verməyin nəyi qəbahətdir ki? Amma məni maraqlandıran başqa məsələdir. Bir övladın bir atası olar, bu ermənilərin neçə atası var? Bunların anaları, erməni kotolikos çıxıb desin, dünya da bilsin ki, bu erməniləri kim əkib! Rus, firəng, amerikan, yixsa fars? Bu gün-sabahlıq ömrü qalıb, ölüb gedəcək, onu ağlayanlar da bilməyəcək ki, bu bədbəxtin zatı-kökü kimlərdən olub. Kotalikos çıxıb bunu desəydi, dünya da bilərdi ki, bunlar niyə bu qədər rəzil, ələbaxan, bacarıqsız, dilənməyi həyat tərzi hesab edən bir toplum olublar və həm də ağlayanda, dədəsinə başsağlığı vermək də lazımdı axı!? Kimə başsağlığı verməlidi dünya? Nə isə, belə getsə dörd atanın “atalıq” iddiası etdiyi bu bic doğulmuş tayfanın gələcəkdə təzə-təzə “ata”ları da peyda ola bilər. Anası ondandı axı, niyə də olmasın?

# “Deməliyəm ki, o, heyrətamiz insan idi”

## *Lev Leşşenko ümummilli lider Heydər Əliyevlə bağlı maraqlı xatirələrini bölüşdü*

***Heydər Əliyevin dostu olmaq şərəfinə nail olduğunu deyən RSFSR xalq artisti, dünya şöhrətli müğənni Lev Leşşenko “Moskva-Baku” portalına müsahibəsində ümummilli liderlə bağlı xatirələrini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Lev Valeryanoviç, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində sizdən xahiş etmək istərdik ki, onun haqqında bizə məlumat verəsiniz, onu necə xatırlayırsınız.**

- Mən çox şadam ki, bu gün bu böyük insanı, nəhəng Avrasiyanın bir ölkəsinin (Azərbaycanın- red.) prezidenti Heydər Əliyevi xatırlaya bilirəm. Deməliyəm ki, o, heyrətamiz insan idi, çox ehtiraslı idi. İnsanlarla asanlıqla ünsiyyət qurur, çox demokratik və sadiq idi. O, hamımızla “sən”lə danışırdı və adımızla çağırdı: Müslüm, Leva, İosif, Volodya. Və təbii ki, bizim onunla tez-tez görüşmək imkanımız olub, çünki bütün o illər ərzində, xüsusən də, Sovet İttifaqının dağılmasından əvvəl biz Bakıda kifayət qədər çox olmuşuq, istər konsertlərlə, istərsə də bəzi festivallarda, əlbəttə ki, burada o, həmişə yanımızda idi. Puşkinin abidəsini açdıq, Sovet İttifaqı xalqlarının festivalını da keçirdik, özü də həmişə orada olurdu, özü də danışırdı, açılışı da özü edirdi. Və ünsiyyətdə o, təəccüblü dərəcədə incə, səmimi, xeyirxah bir insan idi. Ümumiyyətlə, əsl ehtiraslı bir şəxsiyyət. Və onun adı ilə bağlı olan hər şey təbii ki, bu heyrətamiz respublika ilə (Azərbaycanla– red.) ilə bağlıdır. Ölümündən sonra ölkəni çox yaxşı vəziyyətdə qoyub getdi. Və onun varisi olan oğlu indi yaxşı, sağlam yaşayır və Azərbaycan çox parlaq, qüdrətli əsaslarla inkişaf edir.



**- Heydər Əliyev haqqında video xatirələr lentə alan Vladimir Vinokur arxiv fotolarını, o cümlədən Heydər Əliyevin, sizin və Vladimir Vinokurun özünün fotolarını bizimlə bölüşdü. Bu fotonun arxasındakı hekayəni, harada çəkildiyinizi və hadisəni bizimlə bölüşə bilərsinizmi?**

- Bu fotoşəkil, yadımdadır, məncə, Puşkinin abidəsinin açılışında çəkilmişdi. Təəssüf ki, neçənci il olduğunu xatırlamıram, amma hər halda açılışa gəldik, dayandıq və Heydər Əliyeviç Puşkinin şeirindən daha çox misralar deyərək hamını təəccübləndirdi. Bundan sonra Respublika Sarayında ziyafət oldu, orada bir masa arxasında əyləşdik. Həmişə sənət adamlarını öz yanında oturdurdu (gülür). O, sənət adamlarına, xüsusən də müxtəlif respublika və ölkələrdən gələnlərə həmişə hörmətlə yanaşardı. Belə bir təəssürat yarandı ki, bu insan sadəcə yaxın, əziz, sevimli idi.

Yeri gəlmişkən, Azərbaycan xalqı onu çox sevirdi. Elə rəhbərlər var ki, onların həyatında, deyək ki, həm pərəstişkarları, həm də bədxahları var. Əliyevə gəlincə, o, xalqın əsl sevimlisi idi və istisnasız olaraq hamı onu sevirdi. Yəqin ki, bədxahlar yox idi, bəlkə də müxalifət düşərgəsindən kimsə var idi. Söhbət etdik, gördük ki, sadə insanlar onunla necə davranır, ziyalılar onunla necə davranır, ümumiyyətlə, o, hər hansı bir insanla dil tapır. Bu, Allahın bəxş etdiyi ünsiyyət hədiyyəsidir. Və bu gün, onun 100 illik yubileyini qeyd edərkən, mən sadəcə olaraq, yaddaşımızda Azərbaycanın ən parlaq liderlərindən biri, həmçinin Sovet İttifaqının liderlərindən biri kimi qalmış bu böyük insanı xatırlamaq istəyirəm. Bu insanı xatırlayanda onun ruhu hələ də yaşayır. Təbii ki, biz onu təkcə Azərbaycanın deyil, həm də keçmiş dövlətimizin, vətənimizin- Sovetlər İttifaqının tarixində çox parlaq və unudulmaz iz qoymuş heyrətamiz şəxsiyyət kimi xatırlayırıq.

**- Lev Valeryanoviç, Heydər Əliyevlə ilk görüşünüzü xatırlayırsınız?**

- Mənə elə gəlir ki, biz Azərbaycanda rus incəsənəti festivalına gələndə idi. Məncə, yenidənqurma dövründə idi. Və çox parlaq bir şənlik tədbirləri oldu və Respublika Sarayında konsertlə başa çatdı. Konsertdən sonra olan qəbulda masa arxasında əyləşdik. Onların oturduğunu yaxşı xatırlayıram: Boris Sergeyeviç Burunov, mən, Volodya Vinokur, İosif Kobzon. Müslim, məncə, o anda orada deyildi. Mən də onun marağından çox təsirləndim, bilirsiniz, hansısa qəbul olanda insanlar artistləri dinləməkdən, onların çıxışlarına baxmaqdan daha çox danışırlar.

Yadımdadır ki, biz oturmuşduq və rəqs başlayanda hamı ayağa qalxdı. Qız gözəl rəqs etdi və hamı dərhal ayağa qalxdı. Bizə baxdı, başını tərpətdi və soruşdu: “xoşunuza gəlirmi?” Biz təbii ki, başımızı tərpətdik. Ondan bizə yaxınlaşmağı xahiş etdi. O yaxınlaşdı və hamı çox gülümsədi. Çox şirin idi.

**- Keçən dəfə portalımıza demişdiniz ki, Heydər Əliyevin bütün ailəsi ilə tanışsınız. Xüsusilə, onun oğlu, Azərbaycanın indiki prezidenti İlham Əliyevlə münasibətiniz necədir?**

- Təbii ki, İlham Heydəroviçlə, hətta belə desək, mənim iştirak etdiyim toydan sonra belə şəxsi çevrədə danışdıq. Atasının qoyduğu hər şeyi, təbii ki, yaxşı mənada miras kimi qoruyub. Azərbaycana gəlmək, sevinmək, Bakının necə çiçəklənməsinə, ölkənin necə çiçəklənməsinə baxmaq çox xoşdur. Xalqın hansı əhval-ruhiyyəsi var, bunu adi gözlə görmək olar. Bundan sonra bir neçə dəfə “Jara” festifalında (Bakıda musiqi festivalı- red.) olmuşam və təbii ki, bu, həmişə gözəl bayram olub. Bakıda çoxlu dostlarımız var, çox mehriban insanlardır. Biz onları həmişə sevinclə xatırlayırıq və imkan daxilində Bakıya və Azərbaycana gəlirik.



**- Qeyd etdiniz ki, Puşkinin abidəsinin açılışında o, şairin şeirlərini əzbər söyləyib. Onun emosional olaraq özünü necə göstərdiyinə diqqət yetirdinizmi, bəlkə onun bəzi vərdişlərini xatırlayırsınız?**

- Prinsipcə, emosiyalar baxımından kifayət qədər parlaq idi, amma bu, onun daxili vəziyyəti idi. O, narahat idi, bunu hiss edirsən. Lakin o, təmkinli və təəccüblü dərəcədə haqlı idi. Və ümumiyyətlə, onda izlədiklərim, bilirsiniz, əsl dövlət xadiminin böyüklüyü olub. O, çox düzgün, nəzakətli, güvənən, sevimli idi. Yaxşı mənada şərq adamının belə tipik nümayəndəsi.

**- Dediniz ki, Heydər Əliyev Maqomayevi çox sevirdi. Müslümün özü onun haqqında necə danışırdı? Bəlkə o, sizinlə Heydər Əliyevlə bağlı bir neçə əhvalat paylaşıb?**

-Heydər Əliyeviç, təbii ki, Maqomayevi çox sevirdi və fəxr edirdi ki, o dövrdə İttifaqda Azərbaycan xalqının belə parlaq nümayəndəsi var idi. Onun sənətini bilirdi və sevirdi. Müslümdən həmişə oxumağı xahiş edirdi. Müslüm isə ona dərin hörmətlə, böyük ehtiramla yanaşır və həmişə Heydər Əliyev haqqında yalnız əla tonlarla danışırdı. Müslüm Maqomayev və Tamara Sinyavskaya, əlbəttə ki, onun favoritləri idi. Onu tez-tez ziyarət edirdilər. Onları məmnuniyyətlə qəbul edib, ömrünün sonuna kimi onlarla ünsiyyətdə olub. Və ümumiyyətlə, onun xatirəsi yalnız parlaq sevinc hissləri və təbəssüm yaradır. Videomüsahibəyə buradan baxa bilərsiniz

https://www.youtube.com/watch?v=egfse_2y6ZE&feature=youtu.be

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.***


## ELAN

Bank “BTB” Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının illik ümumi yığıncağı 31.05.2023-cü il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.

SƏS
4 may
2023-cü il

## Göy soğan damarları möhkəmləndirir və insultdan qoruyur



Göy soğandan istifadə yaşlı insanlarda qan damarlarının möhkəmlənməsinə kömək edir. “Damarlar kollagendən ibarətdir. Göy soğanın tərkibində olan C vitamini kollageni sintezləşdirməyə kömək edir, damarları möhkəmləndirir”.

Bu barədə hәkim-diyetoloq Yelena Solomatina “MedikForum” saytında yazır. Xəbərdə deyilir ki, həkim əlavə edib ki, göy soğan yaşlı insanların insultun inkişafından müdafiəsini yaxşılaşdırır. “Əgər C vitamini çatışmırsa, deməli damarlar qocala və qırıla, nəticədə hemorragik insult baş verə bilər”, - deyə diyetoloq xəbərdar edib.

Göy soğan yaşlılarda sağlamlığın qorunub saxlanmasında vacib rol oynayan mikroelementlə - maqneziumla da zəngindir. O, xüsusilə sümük toxumasının möhkəmlənməsinə və osteoporoz profilaktikasına, nevroloji sağlamlığa, yaxşı yuxuya kömək edir. Yaşlı dövrdə bu ərzağın digər mühüm üstünlüyü tərkibindəki lif və faydalı maddələrlə zəngin olan şirəsi sayəsində həzmi aktivləşdirməsi və ikinci tip diabetin inkişafına mane olmasıdır.

# Birinci repetitorluğu, yoxsa tamahı azaldaq?

***Bu gün müasir təhsilimizin uğurlarını repetitorsuz təsəvvür etmək mümkün deyil. Xatırlayırsınızsa, uşaqları lap əvvəllər 11-ci sinifdə repetitor yanına göndərirdik. Sonra dedik, yox, qoy uşaq daha da yaxşı hazırlaşsın, 10-cu sinifdən göndərdik. Yəni bunu repetitorlar da məsləhət bildilər ki, ən yaxşı hazırlıq 10-cu sinifdən başlayır. Daha sonra dedik ki, bəs bu uşaq 9-cu sinfin buraxılış imtahanlarını necə verəcək? Yaxşısı budur ki, elə 9-dan göndərək, getsin bir şey öyrənsin ki, imtahandan keçsin, sinifdə qalmasın.***



Lap daha sonralar isə başladıq elə uşaq birinci sinfə gedəndən onu repetitor yanına göndərməyə. Bunun bir neçə səbəbi oldu. Birincisi, valideyn tənbəllik etdi, dedi, əşi əziyyət çəkincə, pulumu verərəm, öyrədərlər də. Beləliklə uşaqlar birinci sinifdən repetitor yanına göndərildi. Onlar da nə etdilər? Uşağın ev tapşırıqlarının həlli ilə məşğul oldular. İkincisi isə əksər valideyn kurikulumdan baş çıxarıb uşaqla məşğul ola bilmədi. Doğru demirəmsə, deyin ki, kəs səsini, yalnış danışırsan. Xüsusilə də 3-cü sinifdən sonra əksər vali-



deyn etiraf edir ki, heç nə anlamırıq. Belə olanda isə uşağı göndərdik repetitor yanına ki, gündəlik misal-məsələsi, çalışması ilə məşğul olsun, sabah sinif müəllimi zəng vurub deməsin ki, bu nə gündə uşaqdır məktəbə göndərmisiniz.

Beləliklə, birinci sinifdən ta on birinci sinfə kimi uşaqlar repetitor yanına getməli oldular. Bunu görən müəllimlər nə etdilər? Dövlətdən əməkhaqqı qarşılığındakı dərs saatlarından sərbəst şəkildə istifadə etməyə başladılar. Görəndə ki, yeni dərsi izah etməyə vaxt çatmadı və yaxud da həvəs olmadı, dedilər ki, uşaqlar bugünkü dərsimizi hazırlıqda izah edəcəyəm. Çünki sinifdəki uşaqların hamısı onun yanına hazırlığa gedir.

Hə, əsas məsələlərdən biri, az qalsın, yadımdan çıxmışdı. Məktəblərimizdə elə ki, repetitorluğun təməli qoyuldu, başqa bir problem də ortaya çıxdı. Deməli, biz valideynlər axtarıb-arayıb elə müəllimlər tapmağa çalışırdıq ki, uşaqlarımıza dərs verən fənn müəllimlərindən daha savadlı olsun. Əks halda onsuz da sinifdə yaxşı-pis dərs keçirilirdi də. Nəyimizə lazım idi ki, üstəlik pul da verib müəllim tutaq. Bunun belə olduğunu görən müəllimlər nə etdilər? Uşaqları sinifdə sıxışdırmağa, qiymətini kəsməyə, dərsə qaldırmamağa başladılar. Səbəb? Səbəb bu oldu ki, sən nə üçün mənim yanıma deyil, başqa müəllimin yanına hazırlığa gedirsən. Bütün günü məktəbdə əziyyətinizi mən çəkim, siz də ayrı müəllimin yanına gedəsiniz?..

Belə olanda biçarə valideyn nə etsin? Nə edəcək, uşaqları aşağı siniflərdə hələlik elə sinif müəllimlərinin yanına hazırlığa göndərdilər. Düşündülər ki, hələ qarşıda uzun illər var. Yuxarı siniflərdə yaxşı müəllim tapıb, göndərərək.

Bu günlərdə mətbuatda təhsil eksperti, “Hədəf” Şirkətlər Qrupunun rəhbəri Şəmil Sadıqovun repetitorluğun bu qədər geniş vüsət almasının qarşısına sədd çəkmək üçün atılacaq ilk addımın 10-11-ci siniflərin tədris proqramlarının dəyişdirilməsi ilə bağlı təklifi ilə tanış oldum. Ekspert təklif irəli sürür ki, 10-11-ci sinuf fənn kurikulumlarında heç bir yeni mövzu salmadan sadəcə 5-9-cu siniflərdə keçirilənlərin intensiv təkrarı yer alarsa, sırf repetitorluq proqramı kimi məktəb rəhbərliyi də buna ciddi nəzarət edərsə, əksəriyyət şagird repetitor yanına getmək ehtiyacı duymaz.

Ekspert vurğulayır ki, əgər bu iş düzgün tənzimlənərsə, repetitorluq yüzdə əlli azalar: dediyim kimi, məhz o dərslərə məktəbin təcrübəli müəllimləri girərsə. Əslində, 12 illik təhsil sisteminə keçid bunun daha sistemli təşkili deməkdir, əgər bu keçid belə çətindirsə, o zaman ən yaxşı yol budur. Çünki 10-11-ci siniflərdə əksər fənnin proqramı yenidir, təkrar son aylara düşür ki, heç bir müəllim ona verilən dərs saatına görə 5-11-ci sinif proqramını yetişdirə bilməz!

Bəli, çox gözəl və qiymətli təklifdir. Çünki son illərin ali məktəblərə qəbul imtahanlarında abituriyentlərin keçilməyən dərslərin sual kimi salınmasından gileyləndiklərinin şahidiyik. Builki qəbil imtahanlarının birinci mərhələsində də qulağımıza bununla bağlı xeyli söz-söhbət gəldi. Maraqlıdır, keçilməyən dərs qəbul imtahanlarına necə salına bilir? Həqiqətən çox maraqlıdır. Hələ də cavabsız qalan bu sualın nə zaman cavablandırılacağı isə bundan da maraqlıdır.

Nə isə, qayıdaq söhbətimizə. Deməli, ekspertin təklifi qəbul olunarsa, çox yaxşı olar, bunu qeyd etdik. Ən azından uşaqların “yükü” azalar. Ancaq repetitorluğun azalması məsələsi, şübhə altındadır. Çünki uzun illərdən bəridir ki, bu məsələ təhsil sistemində elə dərin kök salmışdır ki, bu köklərdən xilas olmaq elə də asan başa gələ bilməz.



İnsafən qeyd edək ki, savadlı, eyni zamanda mənimsətmə bacarığı olan repetitor müəllimlərimiz var. Onlar arasında vicdanlılarına da rast gəlməmiş deyilik. Məsələn, imkansız bir uşaqdan təhsil haqqı almayan müəllim də tanımışıq. İki-üç ayla təhsil haqqını gecikdirən valideyni tələsdirməyənini də görmüşük. Yaxşı oxuyan bir neçə uşaqdan təhsil haqqı almayanlar da var onlar arasında.

Lakin əksər müəllimlər də repetitorluqdan yalnız qazanc məqsədi güdürlər və məhz elə bunun üçün hazırlıq keçirlər. Hazırlıq keçməyə qabiliyyətləri olsa da, olmasa da. Bu səbəbdən də onların belə asanlıqla repetitorluqdan əl götürəcəyinə inanmaq da asan deyil. Nəyin bahasına olursa olsun, bir vasitə ilə yenə də əvvəlki yolla gedəcək və qazanc əldə etməyə çalışacaqlar. Çünki bəzi müəllimlər üçün qazanc məktəbdə bir şagirdə bir misalı başa salmaqdan vacibdir.

Belə olan halda ekspertin təklifi ilə yanaşı, başqa bir mexanizm də tətbiq olunmalıdır ki, repetitorluğun azalmasına yardım etsin. Bu, məsələn, yalnız xüsusi imtahanlardan keçən müəllimlərin repetitor kimi fəaliyyət göstərməsinin mümkünlüyü də ola bilər, bəzi qadağalar da. Əks təqdirdə isə, yaşayarıq, görərik ki, tamah azalmadan repetitorluq necə azala bilər. Bu günün prizmasından baxanda, görünmür, bəlkə sabahın prizması ilə baxaq. Sabaha isə hələ xeyli var...

***Mətanət Məmmədova***

TƏRS DAXIŞ

## Süddən imtina nələrə səbəb ola bilər? - Diqqət!



***Süddən imtina edilməsi orqanizmə ziyan vura bilər. SİA xarici KİV-ə istinadən xəbər verir ki, bunu həkim-endokrinoloq, diyetoloq Oksana Mixaleva deyib.***

Onun sözlərinə görə, bu, qida maddələri çatışmazlığına səbəb olur.

Mixaleva vurğulayıb ki, məhz süd məhsulları insan orqanizmi üçün əsas kalsium tədarükçüsü rolunu oynayır, onların nəzərə alınmaması kalsium defisitinə gətirə bilər. Əlli yaşdan sonra bu mikroelementin çatışmazlığı osteoporozun inkişafına səbəb ola bilər.

Bundan əlavə, südün tərkibində tez həzm olunan zülal var. Uşaqlarda, yeniyetmələrdə, reproduktiv yaşda olan qadınlarda, yaşlı insanlarda, idmançılarda və fiziki fəaliyyətlə məşğul olan insanlarda bu cür zülala ehtiyac çox yüksəkdir.

Südün tərkibində daha nələr var? O, B qrupu (V12, V1, V6) vitaminləri, A vitamini, C vitamini, fosfor, sink, dəmir, selen kimi sağlamlıq üçün vacib olan vitaminlər və mikroelementlərin mənbəyidir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.
**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**